5 oktyabr 2018-ci il
№37 (8803)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**Yüksək balla regionlara** ⇨səh.3

**“Əsas hədəflərimizdən biri də dərsliklə işi düzgün qurmaqdır”** ⇨səh.4

**174 nəfər azərbaycanlı gənc Macarıstanda təhsil alacaq** ⇨səh.6

**“Təhsil Liqası”na start verilib** ⇨səh.6

# Müəllim olmaq missiyası

## Və yaxud şərəfli ad, dəyərli peşə




Bu gün ölkəmizin çoxminli müəllim ordusu özünün peşə bayramını - Beynəlxalq Müəllimlər Gününü qeyd edir. Hər birimizin qəlbində, ruhunda müəllim zəhmətindən pay, müəllim nurundan zərrə olduğundan onların bayramı elə hamımızın bayramıdır.

Müəllimlik dünyada ən gərəkli və dəyərli peşə sayılır. Çünki müəllim yetirmələrinə gizlədilməsi mümkün olmayan gözəllik bəxş edir, yəni bilik öyrədir, həyat üçün zəruri olan bacarıq və vərdişlər aşılayır. İnsanın kamilləşməsi, əqlinin, ruhunun və cisminin bərabər səviyyədə inkişafı onun aldığı təlim-tərbiyədən və bu prosesi düzgün diaqnozlaşdıran, layihələndirən və həyata keçirən müəllimlərdən asılıdır. Ona görə də müəllimin bütün zamanlarda və bütün cəmiyyətlərdə məqamı və sosial statusu üstün olub, o, ən hörmətli şəxs sayılıb. Dünyanın ən böyük şəxsiyyətləri, müdrik dövlət adamları, dahilər müəllim əməyini həmişə yüksək qiymətləndiriblər. Böyük yunan filosofu Platon "Mən müəllimi atamdan çox istəyirəm, çünki atam məni göylərdən yerə endiribsə, müəllimim məni yerdən göyə qaldırıb" deyib.

Biz öz övladlarımızı-gələcəyimizi, işıqlı sabaha bəslədiyimiz ümid və arzularımızı həmişə müəllimə etibar edirik.

⇨Ardı səh.3

# Sığorta, rəqabət və hörmət

## Müəllim dünyanın hər yerində eyni statusa malik deyil

Müəllim dünyanın istənilən nöqtəsində müəllimdir. Deməli, hörmət sahibi olmalıdır. Elə dövlət yoxdur ki, bu və ya digər şəkildə vətəndaşlarının təhsilli olması üçün qayğılarına qalmasın. Məntiqlə hər bir ölkənin müəllimə ehtiyacı var. Ancaq müəllim hər yerdə eyni taleni yaşamır. Maaşından tutmuş sosial statusunadək. Ən ağır yük Braziliya müəllimlərinin üzərinə düşür - bir pedaqoqa 32 şagird. Portuqaliyada isə mənzərə fərqlidir: cəmi 8 nəfər.

Müəllimə cəmiyyətdə ümumən rəğbət bəslənsə də, ölkədən ölkəyə fərq var. Çin üçün müəllim bütdür. İsrail üçün əksinə olmasa da, hər halda xüsusi ictimai status daşıyıcısı kimi də qəbul olunmur. ABŞ-da şagirdlər sözü bir yerə qoyub müəllimin "qəlb"inə dəyə bilərlər. İtaliyada ən təcrübəli müəllimlər yaşayır: orta yaş 49-dur. Ən gənc pedaqoqlar isə Sinqapurdadır: orta yaş həddi 36-dır.

### Frau doktor Şmit

Almaniyada məktəb müəlliminin orta əməkhaqqı 3,5 min avrodur. Ali məktəb müəlliminin dolanışığı bir az da yüksəkdir. Ancaq hər hansı elm sahəsi üzrə mütəxəssis istənilən müəllimdən çox qazanır. Məsələn, adi şirkətdə işləyən mühəndisin məvacibi universitet müəlliminin maaşından çoxdur. Universitetdə müəllimin həftə ərzində 4-5 qoşasaat dərsi olur. Qalan dövrünü o, mütləq elmi işinə həsr etməlidir. Alman ali məktəbləri hər növ elmi və texnoloji nou-haunun mərkəzi olduqlarına görə müəllim daima təkmilləşməlidir.

Alman müəllimi orta statistik alman kimi soyuqqanlı olmalıdır. O, adətən dəcəl şagirdini sakitləşdirməyə xüsusi can atmır. Müəllimin alman cəmiyyətindəki xüsusi yeri onun tələbələrinə "Siz" deyə müraciət etməsini şərtləndirən əsas amildir. Qarşı tərəf də eyni nəzakəti göstərməlidir. Məktəbdə istənilən hədiyyə yolverilməzdir, hətta bir dəstə gül belə. Müəllimin elmi dərəcəsi varsa, hörməti daha da çoxdur. Məsələn, adi müəllimə "Frau Şmit" deyə müraciət olunursa, elmi dərəcəsi olana mütləq "Frau doktor Şmit" deyəcəklər.

### İsrail: dindar köməkçilər

İsrail müəlliminin orta əməkhaqqı Avropadakı həmkarlarınkından 35-37% azdır. Maaş artımının iki yolu var: iş stajı və təkmilləşdirmə proqramlarından keçməklə.

⇨Ardı səh.6

# Ötən ay Təhsil Nazirliyinə 5935 müraciət daxil olub

Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinə ("Qaynar xətt" xidməti, telefon: 146) daxil olan zənglərlə və Vətəndaşların Qəbulu Mərkəzində 2018-ci ilin sentyabr ayında vətəndaşlara göstərilən xidmətlərlə bağlı statistika açıqlanıb.

Qeyd olunan müddət ərzində həmin mərkəzlərə ümumilikdə 5935 müraciət daxil olub.

Statistikaya əsasən, Telefon Məlumat Mərkəzində 3811 zəng qəbul edilib.

Vətəndaşların Qəbulu Mərkəzində isə bu dövrdə 2124 vətəndaşa xidmət göstərilib.

Telefon Məlumat Mərkəzinə və Vətəndaşların Qəbulu Mərkəzinə daxil olmuş müraciətlərin (əsasən sorğu xarakterli olub) əksəriyyəti dərhal cavablandırılıb və operativ həll olunub. Vətəndaşların Qəbulu Mərkəzində 2006 sənəd (1239 ərizə, 759 məktub, 8 digər sənəd) qəbul olunub və qeydiyyata alınıb.

Daxil olan müraciətlər daha çox müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının verilməsi, şagirdlərin bir məktəbdən digərinə köçürülməsi və ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya) ilə bağlı məsələləri əhatə edib.

Qeyd edək ki, Telefon Məlumat Mərkəzinə ötən ay ərzində ən çox həftənin çərşənbə (866 müraciət) və çərşənbə axşamı (784 zəng) günləri, əsasən, saat 10:00-dan 12:00-dək və 14:00-dan 16:00-dək müraciət olunub. Vətəndaşların Qəbulu Mərkəzinə isə ən çox həftənin çərşənbə axşamı (519 müraciət) günü, əsasən, saat 09:00-dan 12:00-dək və 14:00-dan 16:00-dək müraciət edilib.

# Yüksək texnoloji ixtisaslara marağı artırmaq məqsədi

**2017-2018-ci tədris ilinin ən uğurlu layihələrindən biri - "Rəqəmsal bacarıqlar" pilot layihəsinin əhatə dairəsi genişləndirilib. Ötən tədris ilində layihə Bakı şəhərində 45 məktəb üzrə 6500 şagirdi əhatə edirdisə, artıq Bakı və Gəncə şəhərləri üzrə 71 məktəb və 26000 şagird bu layihəyə cəlb olunub.**

Məlumat üçün qeyd edək ki, layihə informasiya texnologiyaları sistemləri və rəqəmsal bacarıqların öyrədilməsi üzrə proqramlar hazırlayan "Alqoritmika" beynəlxalq təhsil şirkəti ilə birgə keçirilir. "Alqoritmika" şirkəti ölkəmizdə "Alqoritmika Azərbaycan" MMC kimi qeydiyyatdan keçərək fəaliyyətə başlayıb. Məzmunun tərcüməsi, yerli standartlara uyğun adaptasiyası və başqa işlərin görülməsi üçün elm və təhsilin bir sıra istiqamətləri üzrə 30-a yaxın yerli mütəxəssis işə cəlb edilib.

Dünyanın bu sahədə özünü doğrultdan ən innovativ metodikalarından istifadə edilməklə peşəkar metodist və pedaqoqlar tərəfindən hazırlanan proqram müvafiq sahə üzrə ən yaxşı təcrübələri özündə birləşdirir. Həmçinin fərdi təlim, nəzəriyyə və tətbiqi yanaşma, fənlərarası əlaqə və motivasiyanın artırılması prinsiplərinə əsaslanır.

Layihə çərçivəsində informatika fənninin tədrisinin təkmilləşdirilməsi yolu ilə şagirdlərin kompüter savadlılığının yüksəldilməsi, onların yüksək texnoloji ixtisaslara marağının artırılması nəzərdə tutulur.

### Müəllimlər üçün xüsusi hazırlıq

Bakıdakı 65 məktəbdə 23500 şagird, Gəncədə 6 məktəbdə 2500-ə yaxın şagird artıq informatika fənnini yeni formatda öyrənir. Onların fənni daha yaxşı mənimsəməsi üçün bütün tədbirlər görülüb. Layihə çərçivəsində dərs deyən 250-yə yaxın müəllim Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (TİPİİ) nəzdində ixtisasartırma təlimlərinə cəlb olunub. TİPİİ-nin direktor müavini, "Rəqəmsal bacarıqlar" layihəsinin rəhbəri Fəxri Qurbanov "Azərbaycan müəllimi" qəzetinə bildirib ki, müəllimlər üçün iki cür ixtisasartırma təlimləri keçirilib. Onlara həm fənnin yeni məzmunu, həm də müəllimlərin İKT üzrə səriştəsini artırmaq üçün təlimlər təşkil edilib.

Layihə ötən ilin sentyabr, noyabr və fevral aylarında mərhələlərlə başlayıb. İlk mərhələdə yarana biləcək problemlərin qarşısının alınmasında İKT bacarığı olan müəllimlər fəal iştirak ediblər: "Keçən il layihəyə cəlb etdiyimiz yüksək İKT bacarığı olan ayrı-ayrı fənn müəllimləri ilin sonunda yüksək nəticə göstərdiklərindən onların bu il də 60-70 nəfəri tədris aparmağa davam edəcək. Buna baxmayaraq, prioritetimiz informatika fənni müəllimləridir".

Bu il layihəyə cəlb edilən müəllimlər 2018-ci ildə keçirilən müəllimlərin işə qəbulu imtahanlarının iştirakçıları arasından da seçilib: "Bu il üçün hazırlığa daha çox vaxtımız vardı. Ötən il layihədə 150-yə yaxın müəllim iştirak edib.

⇨Ardı səh.8

# Beynəlxalq Elm Olimpiadasında Azərbaycanı təmsil edəcək şagirdlərin I seçim turu keçirilib

Sentyabrın 30-da Beynəlxalq Elm Olimpiadasında Azərbaycanı təmsil edəcək şagirdlərin müəyyən edilməsi məqsədi ilə I seçim turu keçirilib. Fizika, kimya və biologiya fənləri üzrə biliklərini nümayiş etdirən şagirdlər 3 saat ərzində 45 tapşırığa cavab veriblər.

Ölkənin hər bir bölgəsindən təxminən 1200 şagirdin iştirak etdiyi I seçmə imtahanının nəticəsinə əsasən, 20 ən yaxşı şagird seçilərək hazırlıq prosesinə cəlb ediləcək. Oktyabrın sonunda isə 20 şagird arasında keçiriləcək II seçmə turun nəticəsinə görə ölkəni təmsil edəcək 6 şagird müəyyən olunacaq.

Qeyd edək ki, yeniyetmələr arasında 15-ci Beynəlxalq Elm Olimpiadası (İJSO 2018) 2-11 dekabr 2018-ci il tarixlərində Botsvana Respublikasında keçiriləcək.

Beynəlxalq Olimpiadalara Hazırlıq mərkəzlərinə şagirdlərin seçimi isə sentyabrın 29-da keçirilib. Fizika, kimya, biologiya və riyaziyyat fənləri üzrə keçirilən seçmə imtahanlarında ölkənin bütün bölgələrindən ümumilikdə 1600 şagird iştirak edib. İnformatika fənni üzrə seçim imtahanı oktyabrın birinci yarısında təşkil ediləcək.




# 2018-ci ilin inqilabi kəşfləri

## *Nobel mükafatı laureatlarının adları açıqlandı*

Səh.5

## RƏSMİ XRONİKA



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Ekertin etimadnaməsini qəbul edib.
- Prezident İlham Əliyev oktyabrın 3-də "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev oktyabrın 2-da Salyan rayonunun Arbatan-Marışlı-Seyidsadıqlı-Quyçu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev oktyabrın 1-də Kürdəmir rayonunun Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi (184 km)-Pirili-Muradxan-Sor Sor avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Koreya Respublikasının Prezidenti Mun Ce-inə bu ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərib.
- Prezident İlham Əliyev oktyabrın 1-də Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerə ölkəsinin milli bayramı - Alman Birliyi Günü münasibətilə təbrik məktubu ünvanlayıb.
- Prezident İlham Əliyev sentyabrın 29-da mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin xarici ölkələrdə keçirəcəyi tədbirlər haqqında sərəncam imzalayıb.
- Ölkə başçısı İlham Əliyev sentyabrın 29-da İndoneziya Respublikasının Prezidenti Coko Vidodoya Sulavesi adasında baş vermiş təbii fəlakətin çoxsaylı insan tələfatı və dağıntılar törətməsi ilə əlaqədar başsağlığı verib.
- Prezident İlham Əliyev sentyabrın 28-də Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün sentyabrın 27-28-də Tacikistan Respublikasında səfərdə olub. Dövlət başçısı İlham Əliyev sentyabrın 28-də Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə görüşündə iştirak edib. Həmin gün MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə iclası olub. Azərbaycan Prezidenti İlham Əliyev iclasda və MDB dövlət başçılarının şərəfinə təşkil olunan rəsmi qəbulda iştirak edib. Düşənbədə MDB Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında söhbət olub.

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.
2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## Təhsil naziri Gəncə şəhərində vətəndaşları qəbul edib

Sentyabrın 28-də təhsil naziri Ceyhun Bayramov Gəncə Dövlət Universitetində Göygöl, Samux, Daşkəsən, Goranboy rayon və Naftalan, Gəncə şəhər sakinlərini qəbul edib.

Qəbuldan əvvəl təhsil naziri Ceyhun Bayramov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin sentyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Göygöl, Samux, Daşkəsən, Goranboy rayonlarında və Naftalan, Gəncə şəhərlərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması, tələbələrin ali və orta ixtisas təhsili müəssisələrinə köçürülməsi və bərpası, diplomların verilməsi, təhsil sənədlərinin tanınması və digər məsələlərlə əlaqədar müraciət ediblər.

## Azərbaycan Respublikasının təhsil işçilərinə “Əməkdar müəllim” fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə aşağıdakı təhsil işçilərinə “Əməkdar müəllim” fəxri adı verilsin:

Abasov Məşədi Abas oğlu
Abdiyev Cəfər Yahya oğlu
Abdullayeva Səkinə Əli qızı
Ağayeva Olqa Mixaylovna
Axundov Natiq Lyutfiq oğlu
Allahverdiyev Elçin Həmid oğlu
Allahverdiyeva Elmira Zərbəli qızı
Babayev Abasət Nadir oğlu
Bağırov Arif Rəşid oğlu
Bağırov Hüseynəli Məmmədəli oğlu
Baxşiyeva Nüşabə Məmməd Tağı qızı
Balakişiyev Kamal Babakişi oğlu
Bezraşvard Nigar Ənvər qızı
Bəşirov Qalib Zakir oğlu
Cavadov Cəmil İsmayıl oğlu
Cavadova Nərgiz Bayram qızı
Cəfərova Laləzər Kazım qızı
Əhmədova Zərxanım Yusif qızı
Əliyeva Təranə Əhmədağa qızı
Əsədova Gülçöhrə Həbibulla qızı
Əskərova Yeganə Nurəddin qızı
Gözəlova Kamilə Kamal qızı
Hacıbalayeva Şəhla Baba qızı
Hacıyeva Pakizə Əsgər qızı
Hacıyeva Sülhiyyə Əlyar qızı
Hacıyeva Zərqələm Cümşüd qızı
Həmzəyev Firidun Ələsgər oğlu
Həsənov İlham Musa oğlu
Həsənova Mədinə Allahverdi qızı
Hüseynli Şərafət Hüseyn qızı
Hüseynova Fəridə Ağababa qızı
Hüseynova Ülkər Həmzə qızı
Xasməmmədova Tahirə Oruc qızı
Xəlilova Afət Mürşüd qızı
İbrahimova İradə Hacı qızı
İbrahimova Sevil Fərrux qızı
İsmayılova Nadejda Astan qızı
Kərimova Rəna Tanırverdi qızı
Qarayeva Fatma Heydar qızı
Quliyeva Tahirə Ramiz qızı
Mehdiyeva Xuraman Məhiyəddin qızı
Məcidova Fatma Məhəmməd qızı
Mədədova İltifat İbad qızı
Məmmədov Allahverdi Nəsib oğlu
Məmmədova Amalya Mirzəbala qızı
Məmmədova Gülüş Balagədə qızı
Məmmədova Heyran Səməd qızı
Məmmədova Nahidə Qaraca qızı
Məmmədova Ruxsarə Çıraq qızı
Məmmədova Tamella Cavid qızı
Məmmədyarova Zərifə Orxan qızı
Mirizadə Gülşən Məmməd qızı
Musayeva Zinyət Əsgər qızı
Mustafayev Ənvər Mustafa oğlu
Mustafayeva Rahilə Əsgərxan qızı
Mustafayeva Yaqut Ömər qızı
Namazova Sevda Fazil qızı
Nəbiyev Fikrət Nəbi oğlu
Nəmətova Bəsdi Məhəmməd qızı
Rəhimov Salman Məmməd oğlu
Sultanova İlhamə Qəribağa qızı
Şabanova Pərixanım Hənifə qızı
Vəliyeva Güllər Xalid qızı
Yevtuşenko Olqa Aleksandrovna.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## Azərbaycan Respublikasının təhsil işçilərinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə aşağıdakı təhsil işçiləri “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Abbasova Sevinc Ağaməmməd qızı
Abduxalıqov Telman Məhərrəm oğlu
Abdullayeva Bahar Fərzalı qızı
Abdullayeva Hədiyyə Veysəl qızı
Abışova Aliyə Eyvaz qızı
Ağayev Kamil Xudaşükür oğlu
Allahverdi Hidayət Fehruz oğlu
Aşurova İmarət Abdulkərim qızı
Babayeva Nəzakət Heybət qızı
Bağırova Adilə Nəriman qızı
Baxşəliyeva Diləfuruz Musa qızı
Baqişeva Amaliya Həsən qızı
Balaqardaşova Afət Səlvər qızı
Bullayeva Nəzani Abdulvaris qızı
Cabbarova Tahirə Mustafa qızı
Cəfərov Zaur Əlizadə oğlu
Cümşüdov Asif Cümşüd oğlu
Dadaşova Fidan Mahir qızı
Dəmirova Aidə Saday qızı
Əhmədov Nizami Hüseyn oğlu
Əhmədova Dərya Hidayət qızı
Əhmədova Svetlana Ədalətovna
Ələkbərova Gülnar Camal qızı
Əliyev Kəmaləddin Qurban oğlu
Əliyeva Məlahət Avıl qızı
Əmrahova Sevinc Zakir qızı
Əskərov Vilayət İsa oğlu
Əskərova Cəmilə Səlim qızı
Hüseynov Eldəniz Nəriman oğlu
Hüseynov Eldəniz Zahid oğlu
Hüseynova Məlahət Seyfəddin qızı
Hüseynova Ülviyyə Misirxan qızı
Xəmmədova Sevil Ənvər qızı
İbrahimova Gülbəniz Qeyrət qızı
İsmayılova Lyubov Vladimirovna
Qasımov Dadaş Həsən oğlu
Qayayeva Yasəmən Naib qızı
Qazıyev Azər Arif oğlu
Qədirli Sevda Həzrətqulu qızı
Liftiyev Rasim Şahab oğlu
Məcnunov Aydın Tapdıq oğlu
Məmmədov Vahid Abasqulu oğlu
Məmmədov Yavər Allahverdi oğlu
Məmmədova Elmira Yasın qızı
Məmmədova Zahidə Faiq qızı
Mirzəyeva Rüxsarə Məhərrəm qızı
Musayeva Kəmalə Hüseyn qızı
Namazov Şahingöz Yunis oğlu
Nəcəfov Əli Nəcəf oğlu
Nəcəfova Rəfiqə Rza qızı
Novruzov Rafiq Manaf oğlu
Novruzova Tamilla Gülağa qızı
Osmanov Osman Əhəd oğlu
Rüstəmov Kamaləddin Paşa oğlu
Seyidova Sədaqət Neymət qızı
Səmədova Aygün Ələsgər qızı
Səmədova Səkinə Çərkəz qızı
Şıxəliyeva Yeganə Şıxəli qızı
Vəliyeva Raifə İsmayıl qızı
Yusifov Avaz Abdulla oğlu
Zeynalov Abusət İsaq oğlu
Zeynalov Ziyafət Məmmədbağır oğlu
Zeynalova Fatma Nurəddin qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 oktyabr 2018-ci il*

## Beynəlxalq hüquq sahəsində ilk elmlər namizədi və elmlər doktoru

### *BDU-da Murtuz Ələsgərovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilib*

Bakı Dövlət Universitetində Azərbaycan Respublikasının Milli Məclisi, Yeni Azərbaycan Partiyası və BDU-nun birgə təşkilatçılığı ilə görkəmli dövlət xadimi, elm-təhsil təşkilatçısı, Əməkdar hüquqşünas, professor Murtuz Ələsgərovun anadan olmasının 90 illiyinə həsr edilmiş beynəlxalq elmi konfrans keçirilib. Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda olub, görkəmli dövlət xadiminin məzarı önünə əklil qoyublar. Konfransdan öncə BDU-nun Hüquq fakültəsində Murtuz Ələsgərovun uzun illər rəhbərlik etdiyi “Konstitusiya hüququ” kafedrasının qarşısında barelyefinin açılışı olub.

Konfransın plenar iclasında rektor, akademik Abel Məhərrəmov beynəlxalq səviyyədə tanınmış ictimai-siyasi xadim Murtuz Ələsgərovun unudulmaz xidmətlərini yaddaşlarda əbədiləşdirmək üçün bir sıra işlər görüldüyünü, onun adına adlı təqaüd təsis edildiyini qeyd edib. Murtuz Ələsgərovun hüquq elmi sahəsindəki əvəzolunmaz xidmətlərindən bəhs edən akademik Abel Məhərrəmov onun beynəlxalq hüquq sahəsində həm namizədlik, həm də doktorluq dissertasiyaları müdafiə etmiş və professor elmi adına layiq görülmüş ilk azərbaycanlı olduğunu söyləyib. Onu da bildirib ki, 1993-1996-cı illərdə Bakı Dövlət Universitetinin rektoru olmuş Murtuz Ələsgərov bu təhsil ocağının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində mühüm islahatların əsasını qoyub. Eyni zamanda, həmin dövrdə cərəyan edən mühüm ictimai-siyasi proseslərdə də yaxından iştirak edib.

Milli Məclisin sədri Oqtay Əsədov qeyd edib ki, bütün həyat və fəaliyyətini hüquq elminin inkişafına, gənc nəslin təlim-tərbiyəsinə, müstəqil dövlətimizin qurulmasına, möhkəmlənməsinə və inkişafına həsr edən Murtuz Ələsgərov Azərbaycanın elmi və ictimai-siyasi tarixində silinməz izlər qoyub, o vaxt mətbuatda dərc olunan yazılarında ulu öndər Heydər Əliyevin Azərbaycanı xilas edə biləcək yeganə siyasi lider olduğunu çəkinmədən bəyan edib.




Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov görkəmli dövlət xadimi Murtuz Ələsgərovun böyük və şərəfli ömür yolu keçdiyini qeyd edib, onun Azərbaycan xalqının görkəmli ziyalılarının parlaq nümunəsi olduğunu bildirib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov bildirib ki, görkəmli dövlət xadimi Murtuz Ələsgərov ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişinin qarşısının alınmasına hesablanmış yaş senzi məsələsi ortaya atılanda həmin ədalətsiz qərara qarşı mübarizə aparanlara dəstək verib, ictimai-siyasi xadim kimi mövqeyini ortaya qoyub.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev isə söyləyib ki, görkəmli ictimai-siyasi xadim Murtuz Ələsgərov respublikanın hüquq orqanları ilə daim sıx əlaqə saxlayıb, qanun və digər hüquqi sənədlərin layihələrinin hazırlanmasında onlara yaxından kömək edib.

Konfransda Rusiya Federasiyasının Əməkdar hüquqşünası, professor Revol Valayev, Moskva Dövlət Universitetinin prorektoru, professor İqor Barisoviç, Ukrayna Respublikasından professor Leonid Timçenko çıxış ediblər. Sonra tədbir Murtuz Ələsgərov adına adlı təqaüdçü, Hüquq fakültəsinin 4-cü kurs tələbəsi Əkbər Əliyevin çıxışı ilə yekunlaşıb.

# Müəllim olmaq missiyası

## Və yaxud şərəfli ad, dəyərli peşə



⇦ Əvvəli səh.1

**Yusif ƏLİYEV**

Və bu gün-bu bayram günündə qeyd etmək xüsusilə xoşdur ki , müəllimlərimiz bu etimadı peşələrinə sədaqət, millətə sevgi ilə, yüksək peşəkarlıq və dərin məsuliyyət hissi ilə doğrulda bilirlər. Bu gün onların üzərinə daha böyük və məsuliyyətli vəzifə düşür: texnoloji tərəqqinin tamamilə dəyişdiyi yeni dünyanın vətəndaşlarını yetişdirmək. Həmişə öz missiyasının öhdəsindən peşəkarlıq və ləyaqətlə gələn Azərbaycan müəlliminin bu gün zamanın yeni çağırışlarına da adekvat cavab verə biləcəyinə şübhəmiz yoxdur.

Tərəqqini təmin edən təhsilə, insan tərbiyəsinə cavabdehlik daşımaq böyük şərəf və məsuliyyət yüküdür. Bu məsuliyyəti anlayan Azərbaycan müəllimi bu gün ölkədə həyata keçirilən təhsil islahatlarının önündə gedir, onun aparıcı qüvvəsini təşkil edir. Bu da təsadüfi deyil. Çünki təhsil üçün yaradılan ən yaxşı şərait, ən mükəmməl maddi-texniki təchizat, ən müasir texnoiogiya və təlim üsulları belə, yalnız öz işinin ustası olan, yüksək intellektə, innovativ düşüncə tərzinə yiyələnmiş müəllim olduqda səmərə verə bilər.

Son illər ölkəmizdə müəllim peşəsinin ictimai nüfuzu durmadan yüksəlir. Bunu ali məktəblərə qəbul imtahanlarında 500-dən çox bal toplayaraq müəllimlik ixtisaslarını seçən gənclərimizin, eləcə də müəllim işləmək arzusunda olanların sayının ildən-ilə artdığını göstərən rəqəmlər də sübut edir: 2018-2019-cu tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqədə 50 minə yaxın müəllim iştirak edib. Ötən illərlə müqayisədə müəllim işləmək arzusunda olanların sayında 3 dəfə artım müşahidə olunub. Son illər ərzində pedaqoji ixtisaslar üzrə sənəd verən abituriyentlərin peşəyə yararlılıq səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib. 2014-cü ildə 500 və daha artıq bal toplayan 922 nəfər müəllimlik ixtisasını seçmişdisə, 2017-ci ildə bu rəqəm 1370 nəfər olub. Bu il keçirilən qəbul imtahanlarında iştirak edərək 500 və daha artıq bal toplayan məzunlar arasında isə müəllimlik ixtisasını 2090 nəfər seçib. Başqa bir maraqlı fakt və müqayisə də müəllimliyə meylin gənclər arasında artdığına dəlalət edir: 2016-cı ilin qəbul imtahanlarında 500 və daha artıq bal toplayaraq ibtidai sinif müəllimliyini seçən cəmi 1 nəfər idisə, builki qəbul imtahanlarında belə abituriyentlərin sayı 235 olub.

Diqqətəlayiq haldır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev də sentyabrın 14-də Bakının Maştağa qəsəbəsindəki 28 nömrəli tam orta məktəbin açılış mərasimindəki çıxışında ölkədə müəllim olmaq istəyənlərin sayının və müəllim peşəsinin hörmətinin artdığını xüsusi qeyd edib. Bütün bunlara səbəb isə ölkəmizdə davamlı olaraq aparılan məktəb tikintisi, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi nəticəsində əməkhaqqı artımı, pedaqoji kadrların işə qəbulunun şəffaf təşkili, bu istiqamətdə atılmış və atılmaqda olan digər addımlardır. Hər il onlarla müəllim dövlət başçısının xüsusi sərəncamları ilə təhsildəki xidmətlərinə görə orden və medallarla təltif olunur, fəxri adlara layiq görülür. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, hər il ucqar məktəblərdə işə qəbul olunan yüzlərlə müəllimə stimullaşdırıcı tədbirlər tətbiq edilir. Ötən dərs ili üzrə müsabiqə əsasında işə qəbul olunan 6000-ə yaxın müəllimin 3000 nəfərdən çoxu ucqar bölgələrdə fəaliyyətə başlayıb. Hazırda kənd məktəblərində işləyən 7500-dək gənc müəllimə stimullaşdırma tədbirləri tətbiq olunur.

Bütün bunlar, təbii ki, həm müəllimlik peşəsinin cazibədarlığını artırır, həm də müəllim olmaq missiyasının yeni üfüqlərini müəyyən edir.

Müəllimlərimizi, bütün təhsil işçilərini bu əlamətdar gün münasibətilə ürəkdən təbrik edir, hər birinə möhkəm cansağlığı, fəaliyyətlərində davamlı uğurlar arzulayırıq.



## Təhsil naziri Ceyhun Bayramovun 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə təbriki

Əziz müəllimlər!

Əsrlər boyu xalqımızın şərəfli missiya daşıyıcıları olan müəllimlər tərəqqiyə, inkişafa, milli rifaha zəmin yaradıb, gələcəyin yolunu müəyyən ediblər. Müəllim sözü həmişə kamillik, ləyaqət, bütövlük simvolu kimi mənəvi keyfiyyətləri ifadə edib və bu dəyərlərin işığında yetişən nəsillər hər zaman öz layiqli müəllimlərinə bənzəməyə çalışıblar.

Bu il YUNESKO Beynəlxalq Müəllim Gününü "Təhsil hüququnun təminatı hazırlıqlı müəllim tələb edir" şüarı altında keçirir. Ölkə başçısı cənab İlham Əliyev tərəfindən 24 oktyabr 2013-cü il tarixində təsdiq edilmiş və bu il 5-ci ildönümünü qeyd etdiyimiz "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" müəllim amilinə, müəllim hazırlığının təkmilləşdirilməsinə və müəllim peşəsinin ictimai nüfuzunun artırılmasına xüsusi önəm vermişdir. Bu gün Azərbaycan müəllimi ona verilən dəyəri hiss edərək öz peşəsinin əsl sahibi olmağa can atır. Bunun sayəsində son illər ölkəmizdə daha hazırlıqlı, daha istedadlı şəxslərin müəllim peşəsinə gəlməsi bizi bu hədəfimizi genişləndirməyə, gələcəyin memarı olan müəllimin inkişafına diqqəti daha da artırmağa səfərbər edir.

Əziz müəllimlər, hər birinizi bu əlamətdar gün münasibətilə ürəkdən təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

Peşə bayramınız mübarək!

# Yüksək balla regionlara

## Cəlilabad və Masallıda təhsilin dəyişən siması

**Ruhiyyə DAŞSALAHLI**

Ötən gün Təhsil Nazirliyinin təşkilatçılığı ilə Cəlilabad və Masallı rayonlarına infotur təşkil olunub. 5 oktyabr-Beynəlxalq Müəllimlər Gününə həsr olunan infoturda jurnalistlər 2018-2019-cu tədris ilində yüksək balla işə qəbul olunan müəllimlərlə görüşüb, dərslərində iştirak ediblər.

### Yeni yolla yeni məktəbə

Bakıdan cənub bölgəsi istiqamətində qısalığı və rahatlığı ilə seçilən yeni yolun istifadəyə verilməsi bu istiqamətdə avtomobillə hərəkəti kifayət qədər rahatlaşdırıb. 2 saat çəkmədən məktəbə çatırıq. Cəlilabad rayonu Fərzili kənd ümumi orta məktəbindəyik.

Fərzili kənd məktəbi bölgədə nə ilk, nə də son modul tipli məktəbdir. Ümumilikdə Cəlilabad rayonunda artıq 5 modul məktəb istifadəyə verilib, 10 belə məktəb isə bu tədris ilində quraşdırılacaq.

Fərzili kəndindəki bu məktəb 7 sinif və 1 müəllimlər otağından ibarətdir. 73 şagirdin təhsil aldığı məktəbdə 19 müəllim çalışır. Müasir avadanlıqlar və mərkəzləşdirilmiş istilik sistemi ilə təmin edilən təhsil müəssisəsində 1 məktəbəhazırlıq qrupu, 9 sinif komplekti fəaliyyət göstərir.

Məktəbin direktoru Fuad Bəhramov bildirib ki, əvvəlki məktəb binası köhnə və bərbad vəziyyətdə olub. Rütubətli və şəraitsiz məktəb binasında dərslər keçilsə də, təhsilin keyfiyyətini təmin etmək mümkün deyildi. Artıq yeni məktəb hazırdır. Elə bunun nəticəsidir ki, qısa müddətdə şagirdlərin də sayı artıb: "Ötən il cəmi 59 şagirdimiz vardı. Artıq 73 şagird təhsil alır".

Məktəbəhazırlıq qrupunda 10 nəfər şagird var. Şagird sayı dinamik olaraq artır. Məktəb direktorunun sözlərinə görə, rayon mərkəzi ilə kəndin arasındakı məsafə cəmi 4 kilometr olduğundan hamı uşağını rayon mərkəzində yerləşən və şəraiti daha yaxşı olan məktəblərə aparırdı: "Artıq hamı uşağını məktəbimizə gətirir və bizə etibar edirlər".

F.Bəhramov cəmi bir neçə ildir ki, direktor təyin olunub. O, direktorların işə qəbulu imtahanlarında yüksək nəticə göstərərək 2016-cı ildən məktəbə rəhbərlik edir. Onun rəhbərliyi altında məktəbdə çalışan 19 nəfər pedaqoqun əksəriyyəti müəllimlərin işə qəbulu imtahanlarında yaxşı nəticə göstərərək, məhz bu məktəbi seçənlərdir. Bu il 4 nəfər - fiziki tərbiyə, texnologiya, riyaziyyat və fizika müəllimləri yüksək həvəslə işə başlayıb.

Qeyd edək ki, 2018-2019-cu tədris ilindən məktəbdə fəaliyyətə başlayan 2 müəllim - fiziki tərbiyə müəllimi Elnur və texnologiya müəllimi Nəzrin gənc ailədir. Elnur müəllim bildirib ki, həyat yoldaşı ilə bu məktəbdə işləmək onları çox sevindirir: "Hər ikimizə burada yaşamaq və işləmək rahatdır. Məktəbimizdə uşaqlar fiziki tərbiyə dərslərinə çox maraqla qatılırlar. Məktəblilər arasında idmanın kütləviliyinin artırılmasına xüsusi diqqət yetiririk. Uşaqlar futbola, şahmata, damaya xüsusi maraq göstərirlər. Şahmat və dama üzrə qızlar xüsusilə fəaldırlar. Ancaq qızlardan futbola həvəs göstərənlər də var. Hazırda yarışa hazırlaşırıq. Şagirdlərimiz arasında yarış təşkil edəcək, qaliblərimizin ölkə əhəmiyyətli yarışlarda iştirakına çalışacağıq".

Məktəbdə çoxdan fəaliyyət göstərən və elə bu kəndin sakini olan müəllimlər də var. Fəxrəndə Şirəliyeva Fərzili kənd orta məktəbində ibtidai sinif müəllimidir: "15 ildir müəllim kimi çalışıram. Məktəbimizdəki ibtidai sinif müəllimləri bu kəndin sakinləridir. 13 nəfər birinci sinif şagirdimiz var. Onlar da, elə biz də yeni məktəbimizə görə çox sevinirik".

Məlumat üçün qeyd edək ki, ötən il ölkəmizin 40 bölgəsində 100 modul tipli məktəb istifadəyə verilib. Bu il isə 137 belə məktəbin istifadəyə verilməsi nəzərdə tutulub. Fərzili kənd ümumi orta məktəbi də elə qurulub ki, şagird sayı artdığı təqdirdə binanın ölçülərinin böyüdülməsi də mümkündür.

### 87 gənc müəllim Masallıda

Yüksək balla müəllim olan və məktəblərdə fəaliyyətə başlayan gənc müəllimlər sadəcə Cəlilabadda deyil. Onların sayı Masallıda da çoxdur. Bu il müəllimlərin işə qəbulu müsabiqəsindən uğurla keçən 87 nəfər gənc müəllim məhz Masallı rayonunun ümumi təhsil müəssisələrində fəaliyyətə başlayıb.

Daha bir maraqlı fakt. Qızların təhsil ala bilməməsi ilə tanınan Masallı barəsində formalaşan bu təsəvvür dağılmaqdadır. Belə ki, ali məktəbə qəbul olunan 500 nəfərin 171 nəfəri, təqribən 40 faizə yaxını qızdır. Bu da qızların təhsilə cəlb olunmasındakı ənənəvi əngəllərin aradan qalxmaqda olduğunu göstərir.

### Masallıda nömrə 1

Masallı şəhəri Rafiq Əlihəsənov adına 1 nömrəli tam orta məktəb onu ilk görəni valeh edir. Əzəmətli bina və səliqəli həyəti ilk baxışdan məktəblə bağlı müsbət rəy yaradır. Görünür, məktəbin uğurlarında elə bu görünüşünün də rolu var. Sadəcə görünüşmü? Maraqlandıqca bəlli olur ki, məktəbin texniki təchizatından tutmuş təhsilin keyfiyyətinə qədər bütün istiqamətlərdə məktəb rayonun nümunəvisidir. Nümunəvi məktəbi də nümunəvi müəllimlər seçir. Yeni tədris ilində işə qəbul olunan müəllimlərin sayı 6 nəfərdir.

Əli Alışlı həmin müəllimlərdən biridir. 57 balla bu məktəbdə tarix fənninin tədrisinə başlayıb: "Dərslərimizi yeni tədris proqramı əsasında qururam. Şagirdlər yeni mövzunun 60 faizini elə dərs vaxtı mənimsəyir və evdə əlavə məşğul olmurlar".

Yüksək nəticə ilə - 54 balla müəllimliyə təyinat alan Rafael Əzimov isə kimya fənnini tədris edir. Şagirdləri arasında həkim olmaq istəyənlərin sayı çoxdur.

Araz Şahverdiyev 54 balla məktəbdə riyaziyyat fənninin tədrisinə başlayıb. V-VII siniflərdə dərs aparır: "Müasir təlim metodlarından istifadə edirəm. Qruplarla işləyir, mövzuları araşdırırıq. Dərslərimiz çox maraqlı keçir".

Pərvin Babayeva isə Sumqayıtda yaşayıb, təhsil alıb. Elə fəaliyyətə də Sumqayıtda başlayıb. Amma günün birində dədə-baba yurdu olan Masallıda işləmək fikrinə düşüb. Hazırda qohumları ilə yaşayan Pərvin müəllim buradakı vəziyyətindən çox razıdır: "2004-2007-ci illərdə Sumqayıt şəhərində pedaqoji fəaliyyətim olub. Bura gəldiyimə görə peşman deyiləm. Burada I-XI siniflərdə ingilis dilini tədris edirəm. Müasir tədris metodları ilə dərs keçirəm və şagirdlər fikirlərini daha rahat ifadə edə bilirlər".

Məktəbin direktoru Mirxanım Hüseynovanın sözlərinə görə, 2018-2019-cu tədris ilində məktəbdə 1965 şagird təhsil alır. 238 şagird birinci sinif, 138 şagird isə məktəbəhazırlıq qrupunda oxuyur. Builki 117 məzundan 55 nəfəri ölkə ali məktəblərinə, 15 nəfəri isə xarici ölkələrin universitetlərinə daxil olub. 3 nəfər 600-dən, 10 nəfər isə 500-dən artıq bal toplayıb.

### Ərkivan uğurlu məzunları ilə öyünür

Ərkivan qəsəbə Z.Nəcəfov adına 2 nömrəli tam orta məktəbdə də gənc müəllimlər üstünlüyü ələ alıb.

Məktəbin direktoru Əbülfəz Əsədov "Azərbaycan müəllimi" qəzetinə açıqlamasında bildirib ki, 480 yerlik məktəbdə 539 şagird təhsil alır. Ötən tədris ilində məktəbi bitirən 19 məzundan 8 nəfəri ali məktəbə daxil olub. Məktəbin ən yüksək bal toplayan məzunu 589 balla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına daxil olub.

Bu il məktəbdə 43 uşaq birinci sinfə, 38 nəfər isə məktəbəhazırlıq qruplarına cəlb edilib. Onlara dərs deyən 42 müəllimdən 6 nəfəri gəncdir. Aytac Kazımlı 50 balla yeganə vakansiyanı tutaraq ibtidai sinif müəllimi kimi fəaliyyətə başlayıb. Aytac müəllim ötən il təqaüdə çıxan müəllimi əvəz edib. III siniflərdə dərsdə olan yeni müəllim uşaqlarla dil tapmaqda çətinlik çəkməyib. Gənc müəllim uşaqları, uşaqları da onu sevir.

Qeyd edək ki, son illərdə müəllim peşəsinin nüfuzu getdikcə artmaqdadır. 2018-2019-cu tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak üçün 50 minə yaxın namizəd elektron ərizə ilə müraciət edib, 5000-dən artıq namizəd müəllim adını qazanaraq işə qəbul olunub. Ötən illərlə müqayisədə müəllim işləmək arzusunda olanların sayında 3 dəfə artım müşahidə olunub.







# “Əsas hədəflərimizdən biri də dərsliklə işi düzgün qurmaqdır”

## Samirə Bektaşi: “Müəllim verdiyi qiyməti əsaslandırmağı bacarmalıdır”

**Ruhiyyə DAŞSALAHLI**

*Oktyabrın 5-də müəllimlərin peşə bayramı beynəlxalq miqyasda qeyd olunur. Bayram ovqatlı oktyabr sevincindən Azərbaycan müəllimlərinin də ünvanına təbrik düşür. Ancaq bu bayram ərəfəsində başlayan müəyyən söz-söhbətlər bayramdan sonra da bir müddət davam edir.*

*Daha çox diqqət yönələn Bakı məktəblərində Beynəlxalq Müəllimlər Günü necə qeyd olunur? Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin rəhbəri Samirə Bektaşi ilə bu məsələyə, eləcə də yeni tədris ilində ilk dəfə tətbiq ediləcək yeniliklərə nəzər saldıq.*

– Heç bir peşə ilə bağlı bayramlar müəllimlərdə olduğu qədər problem yaratmır. Halbuki cəmiyyətin əsasını qoyan, insan yetişdirən məhz müəllimdir. Həkimin də, polisin də müəllimi var. Yəni cəmiyyətdə elə peşə, elə bir sahə yoxdur ki, ora müəllim əli dəyməsin. Ona görə də müəllimlər üçün əziz olan günləri qeyd etməyi qlobal problemə çevirmək doğru deyil. Müəllim günüdürsə, o, təbrik edilməlidir, ünvanına xoş sözlər söylənməlidir, sənəti və şagirdləri üçün çəkdiyi əziyyəti dəyərləndirilməlidir. Hər birimiz şagirdləri həvəsləndirməkdən, insanların motivasiyasından danışırıq. Bir dəstə çiçək müəllim üçün böyük bir stimul ola bilər, onu işləməyə həvəsləndirər. Bilər ki, onu dəyərləndirirlər. Təbii ki, neqativ hallar da olur. Ancaq araşdırılmayan və əsassız faktlar da sosial şəbəkələrdə geniş müzakirəyə çevrilir. Heç kəs deyə bilməz ki, təqvimdəki xüsusi günlərdə məktəblərə böyük vəsait axmalıdır, müəllimlərə bahalı hədiyyələr alınmalıdır. Ancaq müəllimlər də, onların zəhməti də dəyərləndirilməlidir. Dövlət onsuz da bunu edir. Mütəmadi olaraq müəllimlər fəxri ad, fəxri fərman, medal, təşəkkürnamələrə layiq görülürlər. Bunlar müəllimə verilən dəyərdir. Ancaq dövlətin verdiyi bu dəyəri xalq da, cəmiyyət də verməlidir. Müəllim öz peşə bayramında elə təbrik olunmalıdır ki, onun yaddaşında ömürlük qalsın. Bunu xoş sözlərlə də, isti münasibətlə də, şagirdlərin iştirakı ilə təşkil edilən hər hansı maraqlı, yaddaqalan tədbirlə də etmək olar. Ancaq pul yığılması kimi faktlara qarşı mövqeyimiz qətidir. Bunun üçün əlimizdən gələni edir, direktorlarla, müəllimlərlə söhbətlər aparırıq.

**- Tədris ilinin başlanğıcıdır. Bu tədris ilində məktəblər və müəllimlər üçün yeni olan xeyli dəyişiklik olacaq...**

– 2018-2019-cu tədris ili üçün təhsil naziri Ceyhun Bayramovun əmri ilə təhsildə prioritet istiqamətlər müəyyən olunub. Bu il müəllimlərdən azərbaycançılıq ideologiyasının, vətənpərvərlik tərbiyəsinin aşılanması tələb olunur. Əslində, bu, hər zaman prioritet olub. Ancaq bu il həmin istiqamətlərin əmr şəklinə salınması onu tələbə çevirib. Bu da müəllimin məsuliyyətini artırmağa yönəlib. İbtidai sinif müəllimlərinin tərkibinin müəyyənləşdirilməsi, ibtidai siniflərdə dərslərə nəzarətin gücləndirilməsi, oxu və yazı texnikasının, riyazi vərdişlərin formalaşması, kiçik akademiyaların fəaliyyətinin gücləndirilməsi, şagirdlərin ayrı-ayrı fənn müsabiqələrinə, olimpiadalara, yarışlara qatılması tələb olunur. Bir məktəb bu tələbləri yerinə yetirirsə, deməli, həmin məktəb də, onun müəllimi də məsuliyyətini hiss edir. Təhsil Nazirliyi məktəbin və müəllimin bu vəzifəsini yerinə yetirə bilməsi üçün üzərinə düşəni edir.

Bu bir həqiqətdir ki, təhsildə müəllim üçün də, şagird üçün də münbit şərait var. Uşaqlarımızın səsi dünyanın müxtəlif ölkələrində keçirilən ən yüksək səviyyəli yarışlardan, müsabiqələrdən gəlir. Hesab edirəm ki, bütün bunlar müəllimin əməyinin nəticəsidir. Təhsil islahatları da məhz bu əməyin nəticələrinin üzə çıxarılmasına yönəlib.

Həyata keçirilən bütün yeniliklərlə bağlı məktəblərdə müəllimləri məlumatlandırırıq. Sentyabrın əvvəlində keçirilən bölmə iclaslarında müxtəlif təmayül siniflər üçün, ümumi orta təhsil sinifləri üçün tədris planlarını müəllimlərin diqqətinə çatdırdıq. Bu ildən bəzi seçilmiş məktəblərdə 7-ci sinifdən təmayüllər formalaşıb. Həmin siniflər üzrə tədris planları hazırlandı və onlar da müəllimlərə təqdim edildi.

**- Yeniliklərin tətbiqində hər zaman problemlər ortaya çıxır. Bu gün müəllimlərin hansı çətinlikləri ortaya çıxır və bu çətinliyi aradan qaldırmaq üçün nə tədbirlər görülüb?**

– Tətbiq edilən hər yenilik əvvəlcədən hesablanır, beynəlxalq təcrübə öyrənilir. Bəlli bir müddət onun tətbiqi nəticəsində ortaya çıxa biləcək çətinliklərin araşdırılması üçün nəzərdə tutulur. Məsələn, hazırda məktəblərimizdə ehtiyat dərsliklər tətbiq edilir. Bakıda 44 məktəbdə, ölkə üzrə isə 56 məktəbdə “Azərbaycan dili” və “Riyaziyyat”dan həmin dərsliklərdən tədris aparılır. Bu məsələdə də yerli və beynəlxalq təcrübə öyrənilib, müəlliflər xüsusi müsabiqə əsasında seçilib. Düşünürəm ki, yaxşı təcrübə olacaq və yəqin ki, getdikcə genişləndiriləcək. Ümumiyyətlə, müəllimlərin mütəmadi olaraq fənn kurikulumlarının tətbiqində, dərsliklərlə işləməkdə çətinlikləri yaranır. Bəzən məsələnin mahiyyəti onlara aydın olmur. Bu çətinlikləri aradan qaldırmaq üçün həm tədris işləri üzrə direktor müavinləri, həm də müəllimlərlə öyrədici seminarlar olacaq. Yerlərdə əsas hədəflərimizdən biri də dərsliklə işi düzgün qurmaqdır. Bunun üçün artıq dərslik müəllifləri ilə müəllimlərin yerlərdə görüşünü təşkil edirik. Oktyabrın 2-dən başlanan bu görüşlər ibtidai sinif, 5-9-cu sinif, 10-11-ci sinif müəllimləri üçün ayrıca keçirilir. İlk olaraq ibtidai sinif müəllimləri ilə “Azərbaycan dili” və “Riyaziyyat “ dərsliklərinin müəlliflərinin görüşü təşkil olunub. Məqsədimiz odur ki, müəllimlər onları maraqlandıran, mahiyyəti aydın olmayan istənilən məsələ ilə bağlı suallarını dərslik müəlliflərinə ünvanlaya bilsinlər.



**- Bu görüşlərdən dərslik müəllifləri də nəsə qazanacaq...**

– Əlbəttə. Müəllimlərin rəyini eşidəcəklər. Müəllif dərsliyi dövlətin qoyduğu tələb və standart əsasında hazırlayır. Onun tələbdən kənara çıxmağa ixtiyarı yoxdur. Mən də dərslik müəllifiyəm. Ola bilər ki, bizim düşündüyümüz məsələ məktəbdə nəzərdə tutduğumuz nəticəni vermir. Verilən tapşırığın praktik əhəmiyyəti çox azdır. Tutaq ki, uşaqlarda heç bir bacarıq formalaşdırmır. Verilən məlumat yalnız hafizəyə əsaslanır. Düzdür, hafizə də olmalıdır. Ancaq hafizə bilik və praktikaya çevriləndə, uşaq məktəbdə aldığı biliyi həyatda tətbiq edəndə biz dövlətin qarşımıza qoyduğu tələbi yerinə yetirmiş olarıq. Çünki tələb budur: hərtərəfli düşüncəyə, praktik biliyə, vərdişlərə malik, cəmiyyətdə özünü idarə edə biləcək, dövlətinin və millətinin təəssübünü çəkə bilən vətəndaş yetişdirmək. Əlavə vəsaitlər, iş dəftərindən istifadə ilə bağlı çoxlu sual yaranır. Müəllimlər bilməlidir ki, vacib şərt dərsliyin tələbi, məktəblərə pulsuz verilən vəsaitlər üzrə məzmunun çatdırılmasıdır. Əlavə vəsaitlər yalnız zəif şagirdin inkişafı üçün istifadə edilə bilər. Yaxud səviyyəcə yoldaşlarından üstün olan şagirdin biliyini möhkəmləndirmək üçün istifadə oluna bilər. Buna heç kim qadağa qoya bilməz.

**- Dərslik müəllifləri ilə görüşlər hansı çərçivədə təşkil olunur? Neçə məktəbdə və nə qədər müəllimi əhatə edəcək?**

– 12 inzibati rayonun hamısında belə görüşlər keçiriləcək. Qarşıya məqsəd qoymuşuq ki, bu görüşlər əlavə fənn blokuna daxil olan fənləri də əhatə etsin. Çünki bütün fənlər məktəb üçün əhəmiyyətlidir. 183 nömrəli məktəbdə keçirilən tədbirlərdən birində rəssam və heykəltəraş şagirdlərlə qarşılaşdıq. Zəif oxuyan həmin şagirdlərin bu sahədə bacarığına heyran qalmamaq mümkün deyildi. Şagirdlərimiz nigaranlıqla dərslərinin zəif olmasının onlara irad tutulacağını gözləyirdi. Təbii ki, bunu etmədik. Müəllimlər də məktəbdə məhz bu mövqeni nümayiş etdirməlidirlər. Riyaziyyatı mənimsəyə bilmədiyinə görə şagirdə irad tutmaq yox, onu hər hansı başqa bacarığına görə fərqləndirmək, qiymətləndirmək lazımdır. Bu, təhsildə daha yaxşı nəticələr doğura bilər. Bu gün müəllimə heç nə lazım deyil. Sadəcə, fənn kurikulumunu mənimsəyib tətbiq edə bilsələr, onların peşəsində heç bir çətinliyi olmayacaq. Xüsusi istedadlar məktəbdə üzə çıxır. Onu da kurikulumu yaxşı mənimsəmiş istənilən müəllim bacarar. Müəllimlərin çətinlik çəkdiyi məsələlərlə bağlı müxtəlif fənlər üzrə tövsiyələr hazırlanaraq Təlimə Dəstək Mərkəzinin rəsmi səhifəsində yerləşdiriləcək.

**- Qiymətləndirmə ilə bağlı yeniliklər təsdiqini gözləyir. Yeni yanaşma Bakı məktəblərində fərqli nəticələr doğura bilərmi? 100 ballıq şakalanın “2”, “3”, “4”, “5” qiymətləri ilə uyğunlaşdırılmasının düzgün olmadığı bildirilirdi. Ancaq indi məlum olur ki, yeni yanaşmanın tətbiqindən sonra jurnallarda hər iki qiymətləndirmə qeyd ediləcək.**

– Mənə elə gəlir ki, yarana biləcək problemlə əlaqədar olaraq belə bir addım atılacaq. Bu problemlər də valideynlərin vərdiş etdiyi qiymətləri görmək istəməsindən qaynaqlana bilər. Səviyyələr üzrə qiymətləndirilmələr aparılanda da müəllimlərə “Bu nədir uşağa yazmısız?” şəklində müraciətlər olur. Ancaq valideynlər də bilməlidir ki, “5” qiyməti subyektiv xarakter daşıyacaq. Dünya təcrübəsində də bilik və bacarıqlar balla qiymətləndirilir.

**- Bəs sizcə, illik və yarımillik qiymətləndirmə zamanı balların əsasında hesablanan qiymət ənənəvi qiymətlərlə uyğun gəlməyə bilərmi? Axı, hər qiymət özündə 20 balı əhatə edir...**

– Bu, nadir hallarda ola bilər. Belə hal olanda şagirdin formativ qiymətləndirməsi, summativ qiymətləndirmələri meydana çıxacaq. Qiymətləndirmədə yeni yanaşmanın tətbiqi müəyyən problemləri ortaya çıxaracaq. “Azərbaycan müəllimi” qəzetində “Qiymətləndirmədə yeni yanaşma” sərlövhəli yazı geniş rezonans doğurdu. Yazı bizdə də geniş müzakirə olundu. Elə bu müzakirələr də göstərdi ki, hər bir yenilik kimi qiymətləndirmədə də problemlərin olacağı gözləniləndir. Ancaq sənəd təsdiq edildikdən sonra onun tələb və şərtləri ilə bağlı yerlərdə müzakirələr aparacağıq. Bununla bağlı müəllimlərə geniş məlumatlar verəcəyik. Hesab edirik ki, qiymətləndirmənin əsası olmalıdır. Müəllim verdiyi qiyməti əsaslandırmağı bacarmalıdır. O, ilin əvvəlində diaqnostik qiymətləndirməni düzgün aparacaqsa, strategiyasını ona uyğun düzgün müəyyənləşdirəcəksə, mövzunun tədrisi, sinifdə zəif şagirdlərin səviyyəsinin digər şagirdlərə çatdırılması üçün atacağı addımları doğru seçəcəksə, minimum bilik verib maksimum bacarıqları inkişaf etdirəcəksə, məqsədinə nail olacaq. Bunun üçün formativ qiymətləndirmə çox vacibdir. Şagirdin gündəlik izlənməsi müəllimin əlində əsasdır. Əsl müəllim qiymət yazmaqla işini bitmiş hesab etməməlidir. Bu gün dünyanın tələbləri tamam başqadır. Texniki fənlər üzrə mənimsəməsi zəif olan şagirdin humanitar fənlər üzrə xüsusi bacarığı ola bilər. Müəllim bunu düzgün müəyyənləşdirməyi bacarmalıdır. Müəllimlər, məktəb psixoloqları bunu müşahidə edib düzgün qərarlar verməli, uşaqları düzgün yönləndirməlidirlər.

**- Pedaqoji mühazirələrin nəticələri qaneedicidirmi? Növbəti tədris ilinin mövzuları nə olacaq?**

– Bəli, nəticələrimiz yaxşıdır. 1000-dən artıq mühazirə dinlənildi. BŞTİ-dən 12 nəfərin işini respublika mərhələsinə təqdim etmişdik. Onlardan 3 nəfəri 3-cü yerə, 3 nəfəri isə “Tərifnamə”yə layiq görülüblər. Növbəti il üçün də mövzumuz bəllidir. “Müasir dövrdə təhsilin aktual problemləri” növbəti müzakirələrin mövzusu olacaq. Aktual hesab etdiyi problemi müəllim özü qaldıracaq və müsabiqəyə təqdim edəcək.

**- Məktəbəhazırlıq qrupunda tədris fərqlənməlidir. Bəs fərqlənirmi? Əsasən ibtidai sinif müəllimlərinin apardığı bu dərslərin fərqlənməsi üçün hansı tədbirlər görülüb və bundan sonra görülməsi planlaşdırılır?**

– Bəli, məktəbəhazırlıq qruplarında dərsləri IV sinifdə dərs deyən ibtidai sinif müəllimləri aparırdı. Ötən il məktəbəhazırlıq qruplarında 60 məşğələ dinlədik. Qeyd edim ki, məktəbəhazırlıq qruplarının əsas məqsədi şagirdin məktəbə adaptasiyasıdır. İlkin təfəkkür, məntiq, ilkin bacarıqlar formalaşdırmaq, özünü təqdim etmə, tanıma, adlandırma, əşyaları müqayisə etmə, rəngləri ayırd etməni, hərflərin çap variantını tanımalıdırlar. Oynamağa meyilli olan bu uşaqlara yazı yazdırmaq olmaz. Onların qələm tutması oynaq sümüklərinin əyilməsinə səbəb ola bilər. Ona görə də məktəbəhazırlıq qrupunun şagirdi şəkli belə yoğun flamasterlərlə çəkməlidir. Onu da əlavə edim ki, rəsm bu uşaqları tanımaqda xüsusi rol oynayır. Özünü ağacın başında çəkən uşağın zirvədə olmaq arzusunu, yaxud özünü küncdə təsvir edən uşağın qorxularını vaxtında müəyyənləşdirmək də məktəbəhazırlıq qrupunda dərs deyən müəllimin vəzifəsidir. Ancaq hələlik bu məsələdə problemlər ortaya çıxır. Çünki məktəbəhazırlıq da bizim üçün yenidir və ildən-ilə təkmilləşəcək. Onlar üçün də metodik vəsaitlər hazırlanıb və məktəbəhazırlıq qruplarının müəllimləri ilə də seminarlar təşkil ediləcək.

**- Bütün yeniliklər, həyata keçirilən islahatlar müəllimin nüfuzunun yüksəldilməsinə xidmət edir. Bəs, BŞTİ-də müəllimin mövqeyini möhkəmləndirmək üçün hansı tədbirlər düşünülür?**

– Müəllim özü nüfuzunu qaldırmasa, bunu heç kim bacarmayacaq. Müəllim öz nüfuzunu əməli fəaliyyəti ilə qaldıra bilər. Qarşımızda qoyulan tələb, vəzifə və hüquqlarımız var. Hüquqlarımızdan yararlanıb vəzifələrimizi düzgün icra etsək, nüfuzumuz özü qalxacaq. Məncə, müəllimlər zirvəyə yox, zirvədən baxmağa çalışmalıdırlar. Bunun üçün də zirvəni fəth etmək lazımdır.

## Mühəndis-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsi davam etdiriləcək

Dövlət peşə təhsili müəssisələrində çalışan mühəndis-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsinin növbəti mərhələsi cari ilin noyabr ayında keçiriləcək.

Bu mərhələdə əsasən regionlarda fəaliyyət göstərən və indiyə qədər diaqnostik qiymətləndirilməsi keçirilməyən dövlət peşə təhsili müəssisələrinin ixtisas fənn müəllimləri, istehsalat təlimi ustaları iştirak edəcək. Qiymətləndirmənin nəticələrindən asılı olaraq, mühəndis-pedaqoji heyətin bilik və bacarıqlarının ixtisasartırma və yenidənhazırlanma təlimləri vasitəsi ilə əmək bazarının tələblərinə uyğunlaşdırılması nəzərdə tutulur.

Qeyd edək ki, müxtəlif səbəblərə görə əvvəlki qiymətləndirmələrdə iştirak edə bilməyənlər də diaqnostik qiymətləndirmənin bu mərhələsinə cəlb olunacaq. Bununla da dövlət peşə təhsili müəssisələrində çalışan mühəndis-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsinin başa çatdırılması planlaşdırılır.

Diaqnostik qiymətləndirmənin keçirilməsində məqsəd “Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi”nə əsasən peşə təhsili müəssisələri üzrə mühəndis-pedaqoji heyətin bilik və bacarıqlarının yoxlanılması, nəticələrdən asılı olaraq onların ixtisasartırma və yenidənhazırlanma təlimləri vasitəsilə əmək bazarının tələblərinə uyğunlaşdırılmasıdır.

## Təlimlərdə iştirak üçün müsabiqənin ikinci mərhələsinə başlanılır

Təhsil Nazirliyinin birbaşa tabeliyində olan (Bakı şəhərində yerləşən) və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumtəhsil məktəbi, lisey və gimnaziyaların direktorlarını, direktor müavinlərini, müəllimlərini əhatə edən təlimlərdə iştirak üçün müsabiqənin ikinci mərhələsinə başlanılır.

İkinci mərhələ oktyabrın 13-də S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyasında həyata keçiriləcək.

Müsabiqənin ikinci mərhələsi ilə bağlı əlavə məlumatlar bu mərhələyə keçən namizədlərin elektron poçt ünvanlarına göndəriləcək, eyni zamanda telefon vasitəsi ilə məlumat veriləcək.

İkinci mərhələdə namizədlərə 1 saat ərzində kağız formatda 30 test tapşırığı təqdim olunmaqla, onların məntiqi dünyagörüşü qiymətləndiriləcək (sual nümunələri əlavə olunur).

Təlimlərin keçirilməsinin məqsədi müasir idarəetmə bilik və bacarığına yiyələnmiş, informasiya texnologiyalarına bələd olan, ölkəmizin təhsil və sosial inkişafına töhfə verə biləcək ümumi təhsil müəssisəsi direktorlarını təkmilləşdirmək və yetişdirməkdir.

Təlim prosesində müdavimlər təhsildə keyfiyyətin idarəedilməsi, təhsili idarəetmənin hüquqi əsasları, təhsildə statistika və təhlil, təhsildə maliyyənin idarəolunması və digər mövzular üzrə bilik və bacarıqlarını artırmaq imkanı əldə edəcəklər.

Təlimlərdə iştirak etmiş şəxslər Təhsil Nazirliyi tərəfindən təşkil olunacaq yekun qiymətləndirmədə iştirak edəcəklər. Yekun qiymətləndirmədə qənaətbəxş nəticə göstərmiş və hazırda direktor vəzifəsində çalışmayan şəxslər bu vəzifə üzrə vakant yerlərə təyin olunmaq üçün ehtiyat kadr kimi qeydə alınacaqlar.

# 2018-ci ilin inqilabi kəşfləri

## Nobel mükafatı laureatlarının adları açıqlandı



**Oruc MUSTAFAYEV**

İsveçin paytaxtı Stokholmda Nobel Mükafatları Komitəsi ənənəyə uyğun olaraq ayrı-ayrı elm sahələrində 2018-ci il üçün Nobel mükafatı laureatlarının adlarını açıqlayıb. Oktyabrın 1-də ilk olaraq ***fiziologiya və tibb*** üzrə Nobel mükafatı laureatlarının adları məlum olub. *www.nobelprize.org* saytının məlumatına əsasən, İsveçin Karolinsk İnstitutu tərəfindən elan edildiyi kimi fiziologiya və tibb üzrə Nobel mükafatına ABŞ-ın Texas Universitetindən Ceyms Ellison və Yaponiyanın Kioto Universitetindən Tasuku Hondzö layiq görülüblər. Nobel komitəsindən verilən məlumata görə, alimlərə elmi mükafat xərçənglə mübarizə nəzəriyyəsinin kəşfinə görə təqdim olunacaq. Komitə bu mükafatı təsis edərkən kəşflərin nəzəri dəyərindən çox praktik əhəmiyyətinə üstünlük verib. Bu mənada Nobel komitəsinin qərarı olduqca qanunauyğun hesab olunur. "Xərçəng hər il milyonlarla insanın həyatına son qoyur və hazırda bəşəriyyətin sağlamlığı üçün ən böyük problemdir. Nobel laureatları bu il bizim immun sistemimizin xərçəng hüceyrələrinə hücum etmək qabiliyyətini stimullaşdırmaqla xərçəngin terapiyasında tamamilə yeni prinsip müəyyən ediblər",- Nobel komitəsinin açıqlamasında bildirilir. Professor C.Ellison immun sisteminə tormozlayıcı təsir göstərən CTLA-4 zülalını əldə edib. C.Ellison və onun komandası bu zülaldan istifadə etməklə immun sisteminin hansı hissələrinin xərçəng hüceyrələri tərəfindən blokadaya alınmasını müəyyən edə biliblər. Bu tədqiqat siçanlar üzərində sınaqdan keçirilib və xərçəngin bir neçə növünü müalicə etmək mümkün olub. Professor T.Hondzö də faktik olaraq eyni məcrada işləyib, lakin o, digər hərəkət mexanizmə malik PD-1 zülalından istifadə edib. Digər zülallarla əlaqəyə girən PD-1 limfositlərin hücumunun qarşısını alır. Bu isə orqanizmə xərçəng hüceyrələrinin hücumunun qarşısını almağa kömək edir. C.Ellison və T.Hondzö immun sisteminin zəifləməsinin qarşısını alan fərqli strategiyaların xərçəngin müalicəsində necə istifadə oluna biləcəyini bizə göstərib. Tibb sahəsində 2 laureat tərəfindən həyata keçirilmiş kəşf immun hüceyrələrini "tormoz"dan azad etməklə immun sisteminə xərçəng hüceyrələrinin hücum etmək qabiliyyətinə əsaslanıb", - deyə Nobel komitəsinin məlumatında qeyd olunur.

Alimlərin hazırladıqları eksperimental metod insan orqanizminin xərçəng hüceyrələri ilə mübarizə aparması üçün immun hüceyrələrinin əlaqələndirilməsi və azad olunmasını nəzərdə tutur. Nobel komitəsində hesab edirlər ki, bu kəşflərə əsaslanan terapiya xərçənglə mübarizədə son dərəcədə effektivdir. Bu kəşf tibbdə inqilabi dəyişiklik kimi qiymətləndirilir. Komitə üzvləri bəyan ediblər ki, "bu kəşf xərçəngin müalicəsində inqilab edib və bizim xərçənglə mübarizəyə dair münasibətimizi kökündən dəyişib".

Bir maraqlı faktı da qeyd edək ki, hər il Nobel mükafatına mümkün laureatların namizədliyinə dair proqnozlar verən Thomson Reuters Ellison və Hondzö barədə çox dəqiq proqnoz verib. 2016-cı ildə onların adları namizədlər siyahısında olub. 2 ildən sonra bu proqnoz özünü doğruldub. Nobel komitəsinin saytına verdiyi ilk müsahibədə Ellison mükafata layiq görülməsi xəbərinə "İnana bilmirəm, mən şokdayam, bu, mənim həyatımda ən böyük arzum olub" deyib.

Digər laureat Hondzö isə sayta açıqlamasında "pasiyentlərimin "siz mənim həyatımı xilas etdiniz" sözlərini eşitmək daha çox sevindiricidir. Bu, mənim üçün istənilən mükafatdan daha xoş hissdir" deyib.

* * *

Oktyabrın 2-də İsveç Kral Elmlər Akademiyası tərəfindən 2018-ci ilin **fizika** üzrə Nobel mükafatı laureatlarının adları elan olunub. Bu il mükafata lazer fizikası sahəsində yenilikçi ixtiralarına görə üç alim - amerikalı Artur Eşkin, fransalı Jerard Moro və kanadalı xanım Donna Strikland layiq görülüb. Nobel komitəsindən verilən məlumatda qeyd olunur ki, yüksək elmi mükafat alimlərə "lazer fizikası sahəsində inqilabi nailiyyətə görə" verilir. Nobel komitəsi Artur Eşkin tərəfindən "optik pinsetlərin kəşf edilməsini və onun bioloji sistemlərdə tətbiq olunmasını" yüksək qiymətləndirib. Kral Elmlər Akademiyası bildirib ki, A. Eşkinin əsasını qoyduğu optik pinsetlərin inkişafı orqanizmdəki viruslar kimi ən kiçicik hissəcikləri onlara zərər yetirmədən tuta bilər, bu isə "elmi fantastikanın köhnə xəyalı"nın reallaşması deməkdir. "Optik pinset həyat mexanizminin müşahidəsi və ona nəzarət üçün tamamilə yeni imkanları yaradıb", - deyə Kral Akademiyasının açıqlamasında bildirilir. Jerar Moro və onun kanadalı keçmiş tələbəsi Donna Strikland isə "yüksəksürətli ultraqısa optik impulsların generasiyası metodunu hazırladıqlarına görə" yüksək mükafata layiq görülüblər. Alimlər lazerlərin köməyi ilə kiçik hissəcikləri idarə etməyə imkan verən optik pinset ixtira ediblər. Nobel komitəsində qeyd ediblər ki, hazırda dünyada milyardlarla insan hər gün lazer printerlərindən və optik skanerlərdən istifadə edir, milyonlarla insan isə lazer cərrahiyyəsinə üz tutur. Nobel komitəsi hesab edir ki, J.Moro və D. Strikland bəşəriyyət tərəfindən yaradılmış ən qısa və intensiv lazer impulslarına yol açıblar. Maraqlıdır ki, onların inqilabi məqaləsi 1985-ci ildə dərc edilib. Bu məqalə D.Striklandın doktorluq dissertasiyasının əsası olub. Artur Eşkin mükafat fondunun (1 milyon dollar) 1/2-ni alacaq. Mükafatın qalan hissəsi Jerard Moro və Donna Strikland arasında bölüşdürüləcək.

* * *

İsveç Kral Elmlər Akademiyası oktyabrın 3-də 2018-ci il üzrə **kimya** sahəsində Nobel mükafatı laureatlarının adlarını elan edib. Yüksək elmi mükafata amerikalı alimlər, Kaliforniya Texnologiya İnstitutunun professoru xanım Fransis Arnold, Missuri Universitetindən Corc Smit, Böyük Britaniyanın Kembric Universiteti molekulyar biologiya laboratoriyasından Qreqori Uinter "fermentlərin istiqamətlənmiş təkamülü" sahəsində tədqiqatlarına görə layiq görülüblər. F.Arnold fermentlərin təkamülünün öyrənilməsi, C. Smit və Q.Uinter isə peptid və anticismlərin təsvirinə görə mükafata təqdim olunublar. Nobel komitəsi alimlərin kəşfini "təkamülün köməyi ilə inqilab" adlandırıb. F.Arnold istiqamətlənmiş təkamül sahəsində pioner hesab olunur. O, fermentlərin - kimyəvi reaksiyaları katalizləşdirən zülalların təkamülünü nəzarət altına almağa nail olub. İndi onlardan bioloji yanacağın yaradılmasından tutmuş əczaçılığa qədər bir çox sahədə istifadə etmək olar. Amerikalı C.Smit və britaniyalı Q.Uinter isə faqovativ ekran - zülalların dezoksiribinuklein turşusu (DNT), peptid və başqa zülallarla qarşılıqlı əlaqəsinin öyrənilməsinin laboratoriya metodunu işləyib hazırlayıb. O, zülalları və onları kodlaşdıran genetik informasiyaları əlaqələndirmək üçün bakteriofaqlardan (zülalları sıradan çıxaran viruslar) istifadə edib. C.Smit müəyyən edib ki, bakteriofaqlardan yeni zülalların təkamülü üçün istifadə edilə bilər. Q.Uinter isə bundan yeni dərmanların istehsalı üçün necə istifadə etməyi müəyyənləşdirib.

Tədqiqatlar autoimmun xəstəliklərlə, həmçinin metastaz vermiş xərçənglə mübarizə aparmağa kömək edəcək. Bu tədqiqatlar yeni dərman vasitələrinin yaradılmasına imkan verəcək. Mükafatın (1 milyon dollar) 1/2-i F.Smitə çatacaq, qalan hissəsi digər laureatlar arasında bölüşdürüləcək.

## Tibb və fiziologiya üzrə laureatlar



**Ceyms P. Ellison** *(James P.Allison)* 1948-ci il avqustun 7-də ABŞ-ın Texas ştatında Ellis şəhərində anadan olub. Texas Universitetinin məzunudur. 1973-cü ildə universitetin doktorluq elmi dərəcəsini alıb. 1974-1977 - ci illərdə Kaliforniyadakı Scripps Elmi-Tədqiqat Fondunda və klinikada postdoktorant olub. 1977-1984-cü illərdə Texas ştat Smitvilla Universitetinin Onkologiya mərkəzində, 1985-2004-cü illərdə Kaliforniya Berkli Universitetində, 2004-2012-ci illərdə Nyu-York ştatında Sloan Ketterinq Memorial Xərçəng Mərkəzində professor-müəllim heyətində yer alıb. O, eyni zamanda 1997-2012-ci illərdə Hovard Hyuz Tibb İnstitutunda tədqiqatlar aparıb. 2012-ci ildən Texas Universitetinin Anderson Xərçəng Mərkəzində (Cancer Center) professor vəzifəsində çalışıb. Eləcə də Texas ştatındakı Hyuston Parker İmmunoterapiya Xərçəng Mərkəzi ilə əməkdaşlıq edib. Hazırda C.Ellison Texas Universiteti nəzdində xərçənglə mübarizə mərkəzində immunologiya şöbəsinə rəhbərlik edir.



**Tasuku Hondzö** *(Tasuku Honjo)* 1942-ci il yanvarın 27-də Yaponiyanın Kioto şəhərində anadan olub. Tokio Universitetinin məzunudur. 1966-cı ildə tibb elmləri doktoru elmi dərəcəsini alıb. 1971-1974-cü illərdə Vaşinqtonda Karneqi, daha sonra Merilend ştatındakı Milli Səhiyyə institutlarının elmi əməkdaşı olub. 1975-ci ildə Kioto Universitetində doktorluq elmi dərəcəsi alıb. 1974-1979-cu illərdə Tokio Universitetinin, daha sonra Osaka Universitetinin professor-müəllim tərkibinə daxil olub. 1984-cü ildən Kioto Universitetinin professorudur. 1996-2000, 2002-2004-cü illərdə tibb fakültəsinin dekanı işləyib. Hazırda Kioto Universitetində immunologiya professoru vəzifəsini tutur. ABŞ Milli Akademiyasının (2001), Yaponiya Elmlər Akademiyasının üzvü seçilib. Yaponiya və bir sıra ölkələrin nüfuzlu elmi mükafatlarına layiq görülüb.

## Fizika üzrə laureatlar



**Artur Eşkin** *(Arthur Ashkin)* 1922-ci il sentyabrın 2-də ABŞ-ın Nyu-York ştatında Bruklin şəhərində anadan olub. Kolumbiya Universitetinin məzunudur. Kornell Universitetində doktorluq elmi dərəcəsi alıb. 96 yaşlı amerikalı alim, fizik, ixtiraçı optik qurğuların yaradılması sahəsində pioner hesab olunur. Bu optik qurğular atom, molekul və bioloji hüceyrələrin idarə olunmasına gətirib çıxarıb. Alim 1978-ci ildə optik pinseti icad edib. Bir müddət elmi tədqiqat mərkəzlərində (Lucent Technologies və Bell Laboratories) çalışıb. 1992-ci ildə nəzəri fizika sahəsində 40 illik uzunsürən elmi karyerasına son qoyub və təqaüdə çıxıb. A.Eşkin həm də fotorefraksiya, ikinci harmoniyanın generasiyası və qeyri-xətti optika sahəsində tədqiqatları ilə tanınır. 47 patentin və çoxsaylı tədqiqat işlərinin müəllifidir. 1996-cı ildə ABŞ Milli Elmlər Akademiyasının üzvü seçilib. Onun tədqiqatlarından bəhrələnən fizik Stiven Çu 1997-ci ildə fizika sahəsində Nobel mükafatı alıb. 1987-ci ildə kvant elektronikası üzrə, 1998-ci ildə Tauns, 1993-cü ildə Rank, 2004-cü ildə Xarvi mükafatlarına, 1996-cı ildə isə Ayvs medalına layiq görülüb.



**Jerar Moro** *(Gerard Albert Mourou)* 22 iyun 1944-cü ildə Fransanın Albertvil şəhərində anadan olub. Fransa və Amerika fizikidir. 1967-ci ildə Qrenobl Universitetini fizika ixtisası üzrə bitirib. Bundan sonra Politexnik Məktəbində işləyib. 1970-ci ildə Paris Universitetinin doktoranturasına daxil olub. Eyni zamanda bir müddət Kanadanın Lavalya Universitetində çalışıb. 1973-cü ildə fizika üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. Sonra bir il San-Dieqo, Kaliforniya Universitetində işləyib. Daha sonra Paris Milli Qabaqcıl Texnologiyalar Məktəbinin tətbiqi optik laboratoriyasında və Politexnik Məktəbində yüksəksürətli proseslərlə məşğul olan elmi qrup təşkil edib.

1977-ci ildə ABŞ-ın Roçesters Universitetində işləməyə başlayıb. Optika İnstitutunda böyük elmi işçi vəzifəsinə təyin olunub. 1988-ci ildə Miçiqan Universitetində professor vəzifəsini alıb, burada yüksəksürətli optika mərkəzinin əsasını qoyub və uzun müddət ona rəhbərlik edib. Rusiya Elmlər Akademiyasının (2008-ci ildən) xarici üzvüdür. 1985-ci ildə Donn Striklandla birlikdə çox güclü lazer impulslarının alınması üzrə yeni texnikanı təklif edib. Elmi fəaliyyətinin əsas istiqamətləri lazerlər fizikası və qeyri-xətti optikadır.



**Donna Strikland** *(Donna Strickland)* 1959-cu ildə Kanadanın Ontario vilayətində Quelf şəhərində anadan olub. Elektrotexnika və lazerlər sahəsində ixtisaslaşıb. O, lazer impulslarının gücləndirilməsi metodunu ixtira edib. 1981-ci ildə Makmastera Universitetini, 1989-cu ildə isə Roçesters Universitetini bitirib və optika sahəsində fəlsəfə doktoru elmi dərəcəsini alıb. Onun elmi rəhbəri Jerar Moro olub. D.Strikland 1988-ci ildən 1991-ci ilə qədər Kanadanın Milli Tədqiqatlar Şurasının elmi əməkdaşı olub. Hazırda Vaterloo Universitetinin fizika və astronomiya kafedrasında işləyir. O, lazerlərin öyrənilməsi ilə məşğul olan qrupa başçılıq edir. Bu qrup qeyri-xətti optikanın tədqiqatları üçün yüksək intensivlikli lazer sistemlərinin hazırlanması sahəsində fəaliyyət göstərir. O, son 55 ildə fizika üzrə bu yüksək ada layiq görülmüş ilk qadın, həm də Vaterloo Universitetinin ilk Nobel laureatıdır. Vaterloo Universitetinin saytına verdiyi ilk müsahibəsində D.Strikland "məndə özümə qarşı nəhəng əminlik var... Mən sadəcə irəliləyir və istədiyimi edirəm" deyib.

## Kimya üzrə laureatlar



**Frensis Arnold** *(Frances Hamilton Arnold).* 25 iyul 1956-cı il tarixində Nyu-York ştatı Olbani şəhərində anadan olub. Bakalavr və magistratura təhsilini ABŞ-ın Prinston və Berkli Kaliforniya universitetlərində alıb. Berkli Kaliforniya Universitetində fəlsəfə doktoru elmi dərəcəsini (PhD) alıb. Hazırda Kaliforniya Texnologiya İnstitutunda işləyir. Amerikalı alim və mühəndis istiqamətlənmiş təkamülün pioneri hesab olunur. ABŞ Milli Elmlər (2008), Mühəndislik (2000) və ABŞ Tibb akademiyalarının (2004), həmçinin Amerika Fəlsəfə Cəmiyyətinin (2018) üzvü seçilib. Çarlz Stark Dreyper mükafatına (2011), texnologiyalar və innovasiyalar sahəsində ABŞ-ın milli medalına (2013), "Minilliyin texnologiyası" mükafatına (2016) layiq görülüb. Onun adı ABŞ Milli İxtiraçıları Şöhrət Zalına daxil edilib. Stokholm, Çikaqo universitetlərinin, Sürix Texnologiya İnstitutunun fəxri doktorudur.



**Qreq Uinter** *(Gregory Paul Winter)* 14 aprel 1951-ci il tarixində Böyük Britaniyanın Lester şəhərində anadan olub. 1973-cü ildə Kembric Triniti-Kollecini bitirib. Britaniya biokimyaçısı və biotexnoloq, zülal mühəndisliyi üzrə mütəxəssisdir. Kembric Universitetinin professoru, London Kral Cəmiyyətinin (1990) və Böyük Britaniya Tibb Elmləri Akademiyasının (2006) üzvüdür. 2004-cü ildən cəngavər-bakalavr, 2012-ci ildən Kembric Triniti-Kollecinin başçısıdır. 1976-cı ildə Kembricdə fəlsəfə doktoru elmi dərəcəsini alıb. London İmperial Kolleci və Kembric Genetika İnstitutunun postdoktorantı olub. Onun tədqiqatçılıq karyerası əsasən Molekulyar Biologiya Laboratoriyası (Laboratory of Molecular Biology) və Protein Mühəndisliyi Mərkəzi (Centre for Protein Engineering) ilə bağlıdır. "Protein Engineering, Design and Selection" jurnalının baş redaktoru, "European Journal of Immunology" jurnalı redaksiya heyətinin üzvüdür.



**Corc Smit** *(George P.Smith)* 10 mart 1941-ci ildə ABŞ-ın Konnektikut ştatının Nopuolk şəhərində anadan olub. Amerika kimyaçısıdır. Kolumbiya Missuru Universitetinin fəxri professorudur. Bakalavr təhsilini Xaverford Kollecində biologiya üzrə alıb. Bir müddət orta məktəbdə biologiya müəllimi və laborant işləyib. Sonra Harvard Universitetində bakteriologiya və immunologiya ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. 1975-ci ildə Viskonsin Universitetinin postdoktorantı olub. 1983-1984-cü tədris ilində Dyuk Universitetində Nobel mükafatı laureatı Robert Uebster ilə işləyib. Maraqlıdır ki, R.Uebsterə Nobel qazandıran tədqiqat işinin böyük hissəsi C.Smitə məxsusdur.

*Qeyd edək ki, laureatların mükafatlandırılması mərasimi ənənəyə uyğun olaraq 2018-ci il dekabrın 10-da İsveç sahibkarı və ixtiraçı, Nobel mükafatının təsisçisi Alfred Nobelin anım günündə keçiriləcək. 2018-ci ildə Nobel mükafatının məbləği 9 milyon İsveç kronu (təxminən 1 milyon ABŞ dolları) təşkil edir.*




# Sığorta, rəqabət və hörmət

## *Müəllim dünyanın hər yerində eyni statusa malik deyil*

⇦ Əvvəli səh.1

Rüstəm QARAXANLI

Həftəlik orta yük 25 saatdır. Ancaq gənc müəllimlər daha çox qazanmaq üçün əlavə saatlar götürüb həftəlik yükü 40 saatadək artırırlar. Müəllimlərin ən dəyərli bonusları isə budur: 6 il işləyən pedaqoq dövlət hesabına 1 illik məzuniyyətə çıxa bilər. 6 il işlə, 1 il gəz, istirahət et!

İsraildə məktəb müəllimlərinə nəzarət edən hər hansı sistem yoxdur. İl ərzində o, gündəlik planları yerinə yetirməyə də bilər. İlin sonunda isə nazirlik tərəfindən təşkil olunan yoxlamadan keçməlidir. Ancaq bu ölkədə müəllim statusunun toxunulmaz olduğunu da saymaq düzgün deyil. "The Varkey Foundation" qeyri-kommersiya fondunun araşdırmaları göstərir ki, İsrail inkişaf etmiş ölkələrin sırasında müəllimə ən az hörmət qoyan cəmiyyətə malikdir. Şagirdlər müəllimə qarşı saymazyanalıq edə, sinfi zibilləyə, hətta dərs vaxtı yata da bilərlər. "Segondya" qəzetinin yazdığına görə, İsrail məktəblərində valideynin müəllimə şikayət və narazılıq etməsi adi haldır. Xoş olan odur ki, İsrail məktəbində bu çətin peşə sahibinin köməkçisi olur. Adətən köməkçilər dindar ailələrdən olan gənc qızlardır. Onlar alternativ hərbi xidməti bu yolla keçirlər.

### 1 milyon dollarlıq müəllim

ABŞ-da müəllimlərin əməkhaqqı təqribən 4-5 min dollar təşkil edir. Müqayisə üçün qeyd etmək olar ki, amerikalı polislərin də aylıq məvacibi bu qədərdir. Əməkhaqqına əlavə amerikalı müəllimlərin qulaqları üçün qeyri-adi səslənə bilər: burada hesab edirlər ki, maliyyə təhsilin keyfiyyətinə köklü təsir göstərə bilməz.

Amerika məhkəmələr ölkəsidir. Bu səbəbdən müəllimlərin həmkarlar ittifaqları onları 1 milyon dollarlıq sığorta edirlər. ABŞ-da müəllimin məhkəməyə çəkilməsi çox asandır. Məsələn, qaradərili şagirdlər bir yerə yığışıb onu irqçilikdə suçlaya bilərlər. Həmkarlar ittifaqları həmçinin müəllimin Pensiya Fonduna köçürmələrini təmin edir, tibbi sığortanın 70%-ni öz üzərlərinə götürürlər.

Amerikalı müəllimlərin vəzifələrinə tək dərs keçmək deyil, həmçinin elektron poçt, yaxud məktəbin saytı vasitəsilə valideynlərlə daimi ünsiyyətdə olmaq daxildir. Həftəlik dərs yükləri 40 saatdır. İldə iki ay istirahət edirlər, çünki Amerikada məktəb iyunadək davam edir. ABŞ-da müəllim olmaq üçün tək univesiteti bitirmək kifayət deyil: dərs demək üçün lisenziya almaq lazımdır. Əgər müəllim başqa ştata köçürsə, lisenziyanı yenidən almalıdır.

### Darıxdırıcı yazı-pozu işləri

Britaniyada məktəb müəllimlərinin əməkhaqqı 2000-2500 funt təşkil edir. Bununla yanaşı, onlar idarəetmədə iştirak edib maaşlarına əlavə ala bilərlər. Londonda yaşamaq da müəllim üçün əlavə maddi dividentdir, burada həyat şəraiti ölkənin digər yerlərindən yüksəkdir.

Britaniya müəllimlərinin azadlıqları çoxdur. Təhsil Nazirliyi tədris proqramını hazırlayır, müəllim isə bu proqramı hansı ardıcıllıqla nə qədər vaxta bitirəcəyini özü müəyyən edir. İllik yük 1256 saatdır. Bu saatların ilboyu bölünməsi məktəb administrasiyasının işidir. Adətən məktəblərdə müəllimin iş vaxtı 8:30-dan 15:30-dək davam edir.

Bununla belə, onların da başağrısı var: çoxlu yazı-pozu işləri. O, günlük plana malik olmalı, uşaqlar barədə direktora, hətta bəzən valideynə də hər gün məlumat verməlidir. 1997-ci ildə müəllimlər gündəlik hesabatların azaldılması tələbi ilə tətillər də ediblər, ancaq heç bir güzəşt əldə etməyiblər.

Dumanlı Albionun müəllimləri valideyn iclasları keçirmirlər. Ancaq hər bir valideynin tələbi ilə istənilən vaxt ona 10-15 dəqiqə vaxt ayırmağa borcludurlar.

### Kişilər və güzəştlər

Müəllim peşəsi Yaponiyada olduqca nüfuzludur, ona yiyələnmək elə də asan başa gəlmir. Müəllim olmaq istəyən kəs ixtisasdan başqa, onun pedaqoq işinə yararlı olub-olmadığını müəyyən edən imtahandan keçməlidir və lisenziya almalıdır. Bu mərhələləri keçən şəxs sənədlərini prefekturalara - yerli özünüidarəetmə orqanlarına təqdim etməlidir. Onların işə qəbulu məktəblərdə deyil, bələdiyyələrdə həll olunur. Bir müəllim yerinə adətən 20-30 nəfər iddia edir. Maaşlar da az deyil - 2,5-5 min dollar.

Yaponiyalı müəllimlər standart əməkhaqqından başqa, əlavə xeyli qazanca da malikdirlər. İşində uğurludursa, habelə ailəlidirlərsə, bonusa sahib olurlar. Əgər işlədiyi məktəb imkanlı rayonda yerləşirsə, maaşa əlavə edilir. Evi yoxdursa, kirayə üçün əməkhaqqının 10%-i qədər vəsait alır.

Yaponlar əməksevərlikləri ilə seçilirlər. Müəllimlər də istisna deyil. Həftəlik dərs yükləri 54 saat təşkil edir. Standart iş günü saat 9-dan 16-dək davam edir. Ancaq reallıqda onlar 18-dək məktəbdə olurlar.

Yaponiyada məktəb üç mərhələyə ayrılır: ibtidai, orta və yuxarı. Siniflər nə qədər yuxarıdırsa, müəllimlərin cinsində ağırlıq kişilərə tərəf salınır. Statistikaya əsasən, kişi müəllimlərin payı belədir: 40, 60 və 80%.

### Hər il yeni müqavilə

Finlandiyada müəllim işləmək istəyən şəxsin magistr dərəcəsi olmalıdır. Orta əməkhaqqı 2500 avrodur. Ancaq müəllimlərin maaşlarının məbləği hansı sinifdə dərs deməsindən asılıdır. Kiçik siniflərin pedaqoqu bir, yuxarı sinfin müəllimi başqa maaş alır. Müəllimin təcrübəsi, uğurları və təhsil səviyyəsi onun əməkhaqqına dividentlər əlavə edə bilər.

Finlandiyada müəllimlər məktəblərdə müqavilə əsasında işləyirlər. Müqavilə hər il yenilənir, çünki adətən bir mövsümlük - 190 günə imzalanır. Vaxt bitdikdə o, yenidən müsabiqədən keçməlidir. Bir yerə 12 nəfər iddia edir. Məktəblərdə üstünlük adətən gənc pedaqoqlara verilir. Pensiya vaxtında müəllim işləmək olmaz. Burada "sevimli müəllim" anlayışı yoxdur. Müəllim xidmət sferasının işçisi sayılır. Əgər direktor görsə ki, müəllim hansısa şagirdə xüsusi münasibət bəsləyir, həmin pedaqoqu dərhal işdən azad etmək səlahiyyətinə malikdir.

İş günü adətən 8-dən 15-dək davam edir, orta həftəlik yük 32 saatdır. Qalan vaxtda müəllim şagirdlərə məsləhət verir, birgə yaradıcı layihələrin hazırlanmasında iştirak edir. Müəllimlərin təkmilləşməsinə ciddi önəm verilir, ancaq pedaqoqlar bunu özləri etməlidirlər. Özünütəkmilləşdirmə yolu ilə. Fin məktəblərində xüsusi müəllimlər də var: onlar uşaqların maraqlarını müəyyən edir, gələcəkdə hansı peşənin sahibi olmaq istəklərindən irəli gələrək onlara yol göstərirlər.

### "Tüstülü" məktəb

İspan müəlliminin həftəlik yükü 40 saat, əməkhaqqı 2000-2500 avro təşkil edir. İş vaxtı 9-dan 16-dəkdir. Ancaq hətta dərs olmasa belə, müəllimin xeyli işi var: ev tapşırıqlarının yoxlanılması, dərs vəsaitlərinin hazırlanması, şagirdlərə nəzarət və valideynlərlə ünsiyyət.

İspaniyada marixuana leqallaşıb. Bu səbəbdən məktəb həyətində ondan istifadə edən müəllimi görmək adi mənzərədir. Hesab olunur ki, onlar marixuanadan gərginlik və stressə qarşı istifadə edirlər.

Özəl və beynəlxalq məktəblərdə işləmək ispan müəllimlərinin ən böyük arzusudur. Belə məktəblərdə işləmək olduqca nüfuzludur, müəllimə hədsiz hörmət və sayğı var, şagird pedaqoqa qarşı hörmətsizliyə cəhd belə etməz. Eyni zamanda, müəllim də uşağa barmağı ilə toxuna bilməz. Belə müəllim işdən dərhal qovulur.

**Müəllim peşəsi Yaponiyada olduqca nüfuzludur, ona yiyələnmək elə də asan başa gəlmir. Müəllim olmaq istəyən kəs ixtisasdan başqa, onun pedaqoq işinə yararlı olub-olmadığını müəyyən edən imtahandan keçməlidir və lisenziya almalıdır. Bu mərhələləri keçən şəxs sənədlərini prefekturalara - yerli özünüidarəetmə orqanlarına təqdim etməlidir. Onların işə qəbulu məktəblərdə deyil, bələdiyyələrdə həll olunur. Bir müəllim yerinə adətən 20-30 nəfər iddia edir. Maaşlar da az deyil - 2,5-5 min dollar.**

# Nurlu sabahın inciləri

## Azərbaycan Dövlət Pedaqoji Kollecində Beynəlxalq Müəllimlər Günü qeyd olunub

**Sevda AXUNDOVA,**
*Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktor müavini*

Oktyabrın 4-də ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbir başlanmazdan əvvəl qonaqlar kollecin tələbələrinin əl işlərindən ibarət sərgi ilə tanış olublar. "Nurlu sabahın inciləri" mövzusundakı tədbirdə kollecin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov əlamətdar gün münasibətilə müəllim kollektivini təbrik edib. Təhsilə, təhsil işçilərinə diqqət və qayğının dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğunu diqqətə çatdıran Q.Novruzov bu sahənin inkişafı ilə bağlı ölkəmizdə həyata keçirilən kompleks tədbirlərdən söz açıb.

Tədbirdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov, professor Şahlar Əsgərov, təhsil ekspertləri Etibar Əliyev, Nadir İsrafilov, Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova çıxış edərək kollecin pedaqoji kollektivinə təbriklərini çatdırıblar.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllim əməyini yüksək qiymətləndirərək onlara böyük hörmətlə yanaşıb, "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram", - söyləmişdir. Təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasını daim diqqətdə saxlayan ulu öndərin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə müəllim olmaq istəyənlərin sayının artması sevindirici hal kimi dəyərləndirilərək bunun müəllim peşəsinin cəmiyyətdə nüfuzunun yüksəlməsi ilə bağlı olduğu vurğulanıb. Dövlətimizin başçısı İlham Əliyevin müəllimlərin üzərinə çox böyük vəzifə düşdüyünü qeyd etdiyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb: "Gələcək nəslin yetişdirilməsi, onların tərbiyə olunması, Azərbaycana bacarıqlı kadrların hazırlanması çox böyük vəzifədir və ölkəmizin inkişafı məhz bilik səviyyəsindən asılı olacaqdır".

Bayram tədbirində kollecin gələn il 100 illiyi qeyd olunacağı, bu qədim təhsil ocağının fəxri məzunları arasında Mehdi Hüseyn, Niyazi Tağızadə, Salam Salamzadə, Mirvarid Dilbazi kimi görkəmli sənətkarlarımızın adlarının yer alması da xüsusilə vurğulanıb.

Kollecin təqaüdə göndərilən bir neçə müəllimə, eləcə də səmərəli fəaliyyətinə görə bir qrup müəllimə fəxri fərmanlar təqdim edilib. Sonra tələbələrin ifasında mahnı, şeirlər dinlənilib, videoçarx nümayiş olunub.



# 174 nəfər azərbaycanlı gənc Macarıstanda təhsil alacaq

Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində 2018-2019-cu tədris ili üçün Macarıstan təhsil təqaüd proqramına seçimlər yekunlaşıb. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Macarıstan İnsan Resursları Nazirliyi arasında təhsil sahəsində uğurlu əməkdaşlığın nəticəsi olaraq 174 nəfər Azərbaycan vətəndaşı 2018-2019-cu tədris ili üzrə Macarıstanın nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanıb.

Seçim barədə Macarıstan tərəfindən verilən yekun qərar nəticəsində qeyd olunan saziş üzrə 174 nəfər, o cümlədən 18 nəfər doktorantura (PhD), 134 nəfər magistratura, 22 nəfər isə bakalavriat səviyyələrində təhsil almaq hüququ qazanıb. Onlar iqtisadiyyat, biznes və idarəetmə, mühəndislik, informasiya texnologiyaları, texnologiyalar, turizm, təbiət elmləri və davamlı inkişaf istiqaməti üzrə təhsil alacaqlar.

Təqaüdə layiq görülən tələbələr əsasən, "Budapest University of Technology and Economics", "Corvinus University of Budapest", "Eötvös Lorand University", "University of Debrecen" və "University of Pecs" və digər ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıblar. Qeyd edək ki, müvafiq təqaüd proqramı barədə elan cari ilin 1 fevral tarixində verilib.

# "Təhsil Liqası"na start verilib

"Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə 2018-2019-cu il mövsümü üzrə 8 yaşadək (U-8) və 9 yaşadək (U-9) futbolçulardan ibarət komandalar arasında təşkil olunan "Təhsil Liqası"nın oyunlarına başlanılıb.

Liqanın keçirilməsində məqsəd idman məktəblərinin futbol bölmələrində ibtidai hazırlıq qruplarının fəaliyyətlərinin gücləndirilməsi, kütləviliyin təmin olunması, uşaqların yarış təcrübələrinin artırılması, onlar arasında dostluq əlaqələrinin yaradılmasından ibarətdir.

U-8 yaş qrupu üzrə keçirilən yarışlarda idman məktəblərindən və futbol klublarından 12, U-9 yaş qrupu üzrə 14 komanda mübarizə aparacaq. FİFA-nın mövcud qaydaları əsasında keçirilən yarışlar AFFA-nın Hakimlər Komitəsi tərəfindən təsdiq edilmiş hakimlər heyəti tərəfindən idarə olunacaq.

Mövsümün sonunda liqalar üzrə I, II və III yeri tutan komandalar diplom, kubok, medal və qiymətli hədiyyələrlə mükafatlandırılacaq. 5 nominasiya üzrə seçiləcək futbolçular xüsusi mükafatlarla təltif olunacaqlar.

# 30 ilin hesabatı

## Yubileyini uğurlarla qarşılayan məktəb

**Aygün ƏZİZ**

Yer kürəsini günəş nura necə qərq edirsə, hər bir insanın mənəvi dünyasını da elm, bilik o qədər parlaq edir. Bütün dahilər, mütəfəkkirlər, alimlər, şair və yazıçılar, bir sözlə, öz sənətinin mahir biliciləri qazandıqları nailiyyətlərə görə öncə müəllimlərinə borcludurlar. Öz mənalı ömrünü şagirdlərinin mənəvi dünyalarının zənginləşməsinə sərf edən, elmi biliklərə yiyələndirməklə bərabər, onları parlaq şəxsiyyət kimi formalaşdıran müqəddəs bir varlıqdır müəllim.

Haqqında söhbət açmaq istədiyimiz müəllim kollektivi də bu missiyanın daşıyıcısıdır. Onlar Bakının Yeni Günəşli qəsəbəsindəki Nadir Əliyev adına 282 saylı tam orta məktəbi təmsil edirlər. Məktəb 1988-ci ildə ilk şagirdlərini qəbul edib və bu günə qədər də nüfuzunu qoruyub saxlayıb.

Dərs saatı olduğu üçün məktəbdə sakitlikdir. Təxminən 40 dəqiqə sonra şagirdlərin tənəffüsə çıxacağı dəhliz sükuta qərq olub. Səhər saatları olduğu üçün heç dərsdən qaçmaq istəyən bir yana, dərsə gecikən şagird də gözümüzə dəymir... ya da, böyüklərin dediyi kimi zəmanə uşaqları peşəkardırlar.

Sakitlikdən istifadə edib məktəbin direktoru Camal Əlirzayevlə söhbətləşmək üçün otağına yollanırıq. Direktorun otağının qapısı açıqdır. İstər şagirdlər, istərsə də müəllimlər rahatlıqla direktorla ünsiyyət qura, problemlərini bölüşə bilərlər. Müavinlər də zarafatyana, buranı "açıq qapı" adlandırırlar.

### "Ən yaxşı ümumtəhsil məktəbi"

Yubiley həyəcanını yaşayan Camal müəllim deyir ki, məktəb təkcə onun dövründə deyil, digər həmkarlarının dövründə də öncüllüyü ilə seçilib: "Hər il qəbul prosesində şagirdlərin qəbul sayına görə fərqlənirik. Hətta məktəbimiz 2010-2011-ci ildə keçirilən "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub və 10 min manat məbləğində mükafat alıb. Son 12 ilin nəticələrinə görə, Dövlət İmtahan Mərkəzi bizim məktəbin Suraxanı rayonunda birinci yerə layiq görülməsi ilə bağlı məlumatı təsdiqləyib".

Məktəb haqqında məlumat verən direktor deyir ki, 2017-2018-ci il tədris ilində məktəbdə 1358 şagird təhsil alıb və onlarla 161 müəllim məşğul olub. 11-ci sinfi 63 şagird bitirib, onlardan 54 nəfəri ali məktəbə sənəd verib, 47 nəfər isə daxil olub. 3 nəfər 600, 10 nəfər 500-dən yuxarı bal toplayıb.




### "Məktəb millətin müdriklik ocağıdır"

Məktəbdə keçirilən tədbirlərə nəzər yetirdikdə diqqət etdiyimiz xüsusi məqam, şagirdlərin vətənpərvər ruhda tərbiyə edilməsidir. Direktor vurğulayır ki, hər bir məktəbin və müəllimin borcu ilk olaraq vətənpərvər şagird yetişdirməkdir: "Məktəb millətin müdriklik ocağıdır. Məktəb xalqın mənəvi beşiyidir. Məktəbdə təkcə yazıb-oxumağı, hesablamağı və müxtəlif elmlərin sirlərini öyrətmirlər, məktəb həm də insan üçün həyat dərsidir".

Qapının açıq olmasına gəldikdə isə direktor deyir ki, məktəb demokratik prinsiplər əsasında idarə olunur: "Vəzifə səlahiyyətlərinə uyğun olaraq, şagirdlərlə dost münasibəti qururuq. Müasir təhsilin ən böyük əlamətlərindən biri də şagirdlərlə müəllimlər arasında səmimi ünsiyyətin qurulmasıdır. Təlim prosesində şagirdləri dinləyir, onların hüquqlarına hörmətlə yanaşırıq. Çalışırıq ki, tədris prosesində müəyyən ardıcıllığı gözləyək və onları lazımi bilik səviyyələri ilə təmin edək".

### "İndiki şagirdlər çox hazırlıqlı və dünyagörüşlüdürlər"

Direktor müavini Həlimə Ələkbərovanın karyerası məktəblə yaşıddır. Məktəbin ilk günlərindən burada işləyib. 30 il əvvələ qayıtdıqda deyir ki, indi müəllimlərin, şagirdlərin, valideynlərin baxışı dəyişib: "Əvvəl valideynin dediyi fikirlərlə müəllimin sözü üst-üstə düşürdü. İndikilər isə müəllimlərlə razılaşmırlar. Etiraf edək ki, indiki şagirdlər çox hazırlıqlı və dünyagörüşlüdürlər. Bəzi hallarda müəllimlərin bilmədiyini, uşaqlar bilir".

Direktor Camal Əlirzayev təsdiqləyir ki, indi təkcə şagird yox, müəllim də öyrənir: " Hər iki tərəf - istər şagird, istər müəllim birbirindən qidalanır".



Məktəbi gəzərkən üzərinə əl yazısı ilə yazılar qeyd olunan bayraq diqqətimizi çəkir. Bu bayrağın tarixçəsi çox təsirlidir. Məktəbin informatika müəllimi Gülər Musayeva "12056 şəhidimizin adı bir bayraqda" şüarı ilə şəhidlərin adlarını şagirdlərlə birlikdə araşdırıb və bayrağın üzərinə yazıblar: "Mənim ailəmdə iki şəhid olub. Atam, qardaşım Qarabağ veteranıdır. Fikirləşdim ki, şəhidlərə borcumuzu necəsə qaytarmalıyıq. Şəhidlərin sayını araşdırdıq. Uşaqlar onları topladılar və mənə göndərdilər. Şagirdlər özləri tənəffüs vaxtı gəlib, qələmlə şəhidlərin adlarını bayrağa yazırdılar".

Həmsöhbətimiz deyir ki, müəllimin əsas vəzifəsi vətənini sevən şagird yetişdirməkdir: "Mənim üçün əsas vətəndaş yetişdirməkdir. Əgər şagird vətənini sevən vətəndaş deyilsə, onun biliyi mənə lazım deyil. Çünki o biliklə insanları məhv edən nəsə düzəldə bilər. Amma vətənini, millətini sevən insan bunu etməz".

### "Bu sinfə girəndə rahatlıq tapıram"

Məktəbin özəlliklərindən biri də odur ki, internat məktəbinin şagirdlərinin burada sinfi var. O sinfə Azərbaycan dili, ədəbiyyat fənnini Xanım Muxtarova tədris edir. Söhbət üçün Xanım müəllimin sinfinə gedirik. Kənardan müşahidələrimiz zamanı məlum olur ki, Xanım müəllim qayğıya ehtiyacı olan uşaqlara təkcə bilik vermir, həm də ana kimi nazlarını çəkir. Müəllim deyir ki, bu uşaqlar həyatdan aldığı zərbənin aqressiyasını ətrafdan çıxardıqları üçün çox insan onlarla yola gedə bilmir: "2003-cü ildən bu məktəbdə işləyirəm. Hazırda uşaq evlərindən gələn şagirdlərə dərs deyirəm. Mənim üçün haradan gəlməyindən asılı olmayaraq, şagird şagirddir. Qarşılıqlı mehriban, isti münasibətlərimiz var. Bəzi dərslərimiz onlara məsləhətlərlə bağlı olur. Özlərinə də tapşırmışam ki, nə çətinliyiniz olsa, kömək etməyə hazıram. Onlara fərq qoymadan yanaşıram. Bu sinfə girəndə rahatlıq tapır, onlar öyrənəndə qürurlanıram. Düzdür, dəcəl uşaqlardılar, amma onlarla ünsiyyətdə olduqda sinifdən çıxmaq istəmirsən. Qayğı göstərəndə, ikiqat əvəzini verirlər. Şagirdlərimlə ana, bala kimi münasibətdəyəm. Uşaqlarla bağlı o qədər danışıb, düşünürəm ki, gecə yuxuma girirlər. Mənim qazancım isə onların da məni sevməsi və problemlərini mənimlə bölüşməsidir".

### "Dərsin ortasında topla oynamaq istəyirəm"

Dərs vaxtı bir şagird diqqətimizi çəkir. Adı Toğruldur. Yerində dayanmır. Hiss edirik ki, elə sinfin şıltağı odur. Dəhlizə qaçmaq üçün zəngin vurulmasını səbirsizliklə gözləyir: "45 dəqiqə darıxıram və tənəffüsləri çox sevirəm. Məktəbdə səlahiyyətim olsa idi, sinifdə dərs vaxtı topla oynamağa icazə verərdim. Bəzən onu incitsəm də, Xanım müəllim bizə ana kimidir. O məni çox istədiyi üçün, mən də onu çox istəyirəm".

Toğrul hərbçi olmaq istəyir: "Səhər dərsə gələndə əziyyət çəkdiyim üçün dərslər axşam olsa, yaxşı olardı. Məktəbi bitirdikdən sonra isə hərbçi olub, vətən keşiyində dayanmaq istəyirəm".

* * *

Məktəb o qədər doğma, münasibətlər o qədər istidir ki, orada nə mövzu bitər, nə də söhbət... 30 il az müddət deyil. Bu illərdə qazanılan uğurların hər biri ayrılıqda qələmə alınasıdır. Məcbur qalıb, onlarla xudahafizləşirik. Növbəti yubileylərə qədər daha böyük nailiyyətlərə imza atacaqlarına inamla.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4589, **Sifariş** 2962

**Məsul növbətçi:** N.Rəhimov



# Etibarsız sayılır

**D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu** tərəfindən 1986-cı ildə Babayev Bəhram Şahmərdan oğluna verilmiş KB-013528 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 34 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Hüseynova Aynurə Nəsib qızına verilmiş A-152691 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 4 nömrəli tam orta məktəbi 1989-cu ildə bitirmiş Allahverdiyev Taleh Bayram oğluna verilmiş 003986 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 232 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Allahverənov Nəsimi Xanəli oğluna verilmiş A-222449 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Məşədlər kənd tam orta məktəbini 1991-ci ildə bitirmiş Qasımova Şəhla Sultan qızına verilmiş A-197783 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü liseyi 2003-cü ildə bitirmiş Bəylərova (Məmmədova) Sevda Bəylər qızına verilmiş A-685389 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sədərək rayon** Sədərək kənd 1 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Məmmədli Məhəmməd Əli oğluna verilmiş A-499571 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Güllütəpə kənd tam orta məktəbini 1988-ci ildə bitirmiş Binyətov Nəsrulla Hamil oğluna verilmiş A-423669 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2013-cü ildə Mahmudov Elgün Vahid oğluna verilmiş A-005859 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1990-cı ildə Əliyeva Nəzakət Sədcət qızına verilmiş TB-I-087906 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 28 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Məmmədli Şəhriyar Ərzuman oğluna verilmiş B-501318 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu** tərəfindən 1984-cü ildə Əliyev İsgəndər Yaqub oğluna verilmiş ИВ-035431 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Pedaqoji Qızlar Seminariyası** tərəfindən 2004-cü ildə Dadaşova (Məmmədova) Züleyxa İsmayıl qızına verilmiş B-014984 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1989-cu ildə Eyvazov Mehman Eldar oğluna verilmiş PB-044524 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Filfilli kənd tam orta məktəbini 2012-ci ildə bitirmiş Əliyev İsmayıl İsrayıl oğluna verilmiş B-056715 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2018-ci ildə Həsənova Səfiyyə Vaqif qızına verilmiş A-151883 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2013-cü ildə Həsənzadə Tural Şakir oğluna verilmiş A-017373 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 60 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Abasquliyev Ramiz Rövşən oğluna verilmiş E-006108 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 143 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Soltanzadə Muhamməd Səbuhi oğluna verilmiş E-136423 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 52 nömrəli tam orta məktəbi 1975-ci ildə bitirmiş Şaulova Şuşan Yuşvayevnaya verilmiş 725183 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 70 nömrəli Pilot Lisey Məktəbi 2007-ci ildə bitirmiş Əzimova Nigar Sahib qızına verilmiş B-374848 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Fizika-riyaziyyat və informatika təmayüllü liseyi** 2012-ci ildə bitirmiş Süleymanov Xəzər Akif oğluna verilmiş A-005352 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 1 nömrəli məktəb-liseyi 2004-cü ildə bitirmiş Fətəliyeva Xəyalə Şahin qızına verilmiş B-110945 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 2 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Rüstəmov Anar Möhübbət oğluna verilmiş 070595 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 3 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş İsmayılzadə Vüsal Mahmud oğluna verilmiş A-059378 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şahağac kənd 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Fərzəliyeva Ülkər Əhliman qızına verilmiş 289721 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 6 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Babayev Tofiq Zülfüqar oğluna verilmiş A-241271 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 181 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əhmədov Emin Yusif oğluna verilmiş A-521401 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Babayeva Lalə Azər qızına verilmiş A-017385 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Həsənov Mirheydər Mirpaşa oğluna verilmiş A-292283 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon Kiçik Dəhnə kənd** 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Ələkbərova Təranə Tofiq qızına verilmiş A-145498 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** şəhər 4 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Əbilzadə Məhəbbət Elçin oğluna verilmiş E-057182 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2005-ci ildə Əbdüləzimov Tural Şahvələd oğluna verilmiş B-049452 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** H.Babayev adına tam orta məktəbi 2017-ci ildə bitirmiş Abdullazadə Mirmöhsün Zaur oğluna verilmiş E-063738 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Bəcirəvan kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Nəsirova Elnarə Nəsir qızına verilmiş AN-007124 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 2 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Quliyev Xəyal Mübariz oğluna verilmiş A-423284 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 2005-ci ildə Zamanov Eldar Qafil oğluna verilmiş BB-II-028145 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2008-ci ildə Məmmədova Günel Azad qızına verilmiş BB-I-009100 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Haftonu qəsəbə tam orta məktəbini 1986-cı ildə bitirmiş Tağıyev Altay Əziz oğluna verilmiş 172296 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 145 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Mustafayeva Rəna Qersenenovnaya verilmiş A-070047 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dəniz Yolları Məktəbi** (indiki Azərbaycan Dövlət Dəniz Akademiyası) tərəfindən 1983-cü ildə Dadaşov Yaşar Abdulhüseyn oğluna verilmiş AB-II-060791 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 9 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Rəsulov İlham Ceyhun oğluna verilmiş A-342070 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki Dövlət Texniki Kolleci** tərəfindən 2005-ci ildə Əhmədov Anar Abduləvvəl oğluna verilmiş BB-II-018688 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.



# Yüksək texnoloji ixtisaslara marağı artırmaq məqsədi

## "Rəqəmsal bacarıqlar" pilot layihəsinin əhatə dairəsi genişləndirilib

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Bu il müəllimlərin sayı 250 nəfərə çatıb. Yəni, bu il layihəyə əlavə olaraq 100 müəllim də cəlb edilib. Həmin müəllimlərin 20-30 faizi müəllimlərin işə qəbulu imtahanlarında iştirak edən namizədlər sırasından seçilib".

F.Qurbanovun sözlərinə görə, İnformatika müəllimliyi ixtisası üzrə kadr hazırlığı həyata keçirən ali və orta ixtisas təhsili müəssisələri ilə fəal iş aparmaq da nəzərdə tutulub: "Rəqəmsal bacarıqlar məzmununun pedaqoji tərəfini təhsil müəssisələrinin kurikulumlarına, tədris proqramlarına daxil edəcəyik. Bu istiqamətdə danışıqlar gedir".

Gələcəkdə başqa fənn müəllimlərinin olmasa da, İT mütəxəssislərinin pedaqoji heyətə qatılması da gözləniləndir: "Təhsil haqqında" qanunda aparılan dəyişiklik artıq imkan verir ki, pedaqoji təhsili olmasa da, mütəxəssisləri öyrətmə prosesinə cəlb edək".

### 26 min şagirdin hər birinin internetə çıxışı təmin olunur

Layihənin uğurla tətbiq edilməsi üçün böyük infrastruktur işləri də görülüb. Təkcə bu il 100 yeni kompüter otağı istifadəyə verilib, həmin otaqlar 1000-ə yaxın müasir kompüterlə təchiz edilib. Ümumiyyətlə, bu günədək "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində 71 məktəb üzrə 230 kompüter sinfi qurulub. Layihə başlayandan bəri 2500-ə yaxın müasir kompüter şagirdlərin istifadəsinə verilib. Onların dərs zamanı fərdi işini kompüterdə görə bilməsi üçün tam şərait yaradılıb. F.Qurbanov deyib ki, 26 min şagirdin hər birinin internetə çıxışı var: "Siniflərin Azərbaycan Təhsil Şəbəkəsinə yüksək sürətli internet bağlantısı təmin edilib. Şagirdlərin fərdi hesablar üzərindən iş görməsi, müəllimin dərsi izah etməsi üçün kompüter, proyektor, interaktiv lövhələr təmin edilib".

### "Rəqəmsal bacarıqlar" Gəncədə

Layihədə ən böyük yenilik onun Bakının sərhədlərini aşması və Azərbaycanın digər şəhər və rayonlarına doğru genişlənməsidir. Artıq qeyd etdiyimiz kimi, Gəncə şəhərində yerləşən 6 məktəb layihəyə qoşulub. Təhsil naziri Ceyhun Bayramov da Gəncədə olub və şəhər 4 nömrəli tam orta məktəbində Azərbaycan və rus bölməsindən ibarət VI sinifdə rəqəmsal bacarıqlar layihəsi üzrə dərsin gedişini izləyib.

2018-2019-cu tədris ilində Gəncə şəhərində 76 sinif üzrə 2500 şagirdə 24 informatika fənni müəllimi tərəfindən yeni məzmun üzrə dərs keçirilir. Rəqəmsal sistemin uğurlu tətbiqi üçün məktəblərdə İKT infrastrukturunun təkmilləşdirilməsi işləri həyata keçirilib. 21 yeni kompüter otağı istifadəyə verilib, həmin otaqlar 300 ədəd noutbuk, proyektor, elektron lövhə və yüksək sürətli internet bağlantısı ilə təmin olunub. Gəncə şəhərində də həm rus, həm də Azərbaycan bölmələri üzrə 5 və 6-cı siniflərdə informatika dərsləri hesabına rəqəmsal bacarıqlar layihəsi icra olunur.

Gəncədə fənn müəllimlərinin xüsusi fəallığını qeyd edən F.Qurbanov kifayət qədər yüksək nəticələr müşahidə edildiyini vurğulayıb: "Həm müəllimlər, həm də şagirdlər layihəyə maraq göstəriblər. Müəllimlərin İT bacarığını isə gözlədiyimizdən yüksək qiymətləndirmək olar. Belə ki, Gəncədə müəllimlər kifayət qədər yaxşı nəticələr göstəriblər. Elə şagirdlərlə bağlı da rəylər müsbət yöndədir. İlk 3 həftə ərzində dərslərdə xüsusi bir çətinlik müşahidə edilməyib".

"Rəqəmsal bacarıqlar" layihəsi sadəcə əhatə dairəsini genişləndirmir, həm də məzmununu dərinləşdirir. Başqa sözlə, şagirdlərin istifadə edəcəyi proqramlar təkmilləşdirilir, zənginləşdirilir. Məsələn, bu yay ərzində məktəblilər üçün ən məşhur proqramlaşdırma mühiti sayılan "Scratch 3.0" (son versiyası) Azərbaycan dilinə tərcümə olunub.

Bu il həmçinin, bütün ölkə ərazisində "Kod Saatı" tədbirlərinin keçirilməsi nəzərdə tutulub. Tədbirin keçirilməsində məqsəd iştirakçılarda İT ilə əlaqədar olan peşə sahələrinə marağı artırmaqdır. Qeyd edək ki, "Kod Saatı" dünyanın 180-dən çox ölkəsində yüz milyonlarla tələbə və şagirdi əhatə edən qlobal bir təşəbbüsdür.

### Layihənin uğuru onun davamlılığını şərtləndirir

F.Qurbanovun sözlərinə görə, ötən bir il ərzində aparılan müşahidələrdən belə qənaət hasil olub ki, 6500 şagirdin hamısı yüksək nəticələr göstərib. Nəticədə pilot layihə olaraq "Rəqəmsal bacarıqlar"ın növbəti mərhələsinə start verilib. Bu il layihədən daha yüksək nəticələr gözlənilir: "Layihəyə cəlb edilən uşaqların sayı 4 dəfə artıb. Bu gedişlə layihə bütün ümumtəhsil sistemində I-XI sinifləri tamamilə əhatə edəcək".


**Unibankdan müəllimlər gününə xüsusi hədiyyə!**

**Təhsil işçiləri üçün nağd kreditlər KOMİSSİYASIZ oldu!**
Əziz müəllimlər, bayramınızı təbrik edirik!
İndi 20.000 AZN-dək nağd istehlak kreditlərini 0% komissiya ilə götürün!

**Unibankdan kredit götürmək təhsil işçilərinə xüsusi üstünlüklər verir:**
- komissiya 0%;
- sığorta xərci yoxdur;
- zamin tələbi yoxdur;
- iş yerindən arayışa ehtiyac yoxdur;
- kreditin ödəniş tarixini müştəri özü təyin edir;
- 20 000 AZN-dək kredit məbləği;
- 48 ayadək ödəniş müddəti;
- cəmi 19 AZN-dən başlayan aylıq ödəniş;
- 8117-yə "kredit" yazıb göndərməklə və ya WhatsApp nömrəsinə (050 778 8117) yazaraq, krediti bankdan növbəsiz götürmək imkanı.

**Kampaniya oktyabrın 15-dək davam edəcək.**
Şənbə günləri də Unibankın bir çox filiallarına müraciət edə bilərsiniz.

unibank | Hər kəsin bankı
117





# İKT üzrə təlimlər keçirilib

Təhsilverənlərin peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə İKT-nin təhsildə tətbiqi üzrə təlimlər keçirilib. 7 ay ərzində davam edən təlimlərdə 3780 nəfər pedaqoji və inzibati-idarəetmə heyəti iştirak edib. Təlimlər ölkəmizin ümumilikdə 21 şəhər və rayonunu əhatə edib.

Təlim proqramları iştirakçıların nəzəri və praktik bacarıqlarının artırılmasına və İKT-nin tədris prosesində tətbiqi üzrə vərdişlərin formalaşmasına yönəldilib.

Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi ilə "Təhsildə İnnovativ Texnologiyalar" Əlavə Təhsil Mərkəzi arasında imzalanmış müqaviləyə əsasən keçirilən təlimlər İKT üzrə savadlılığın artırılması, tədris prosesində interaktiv texnologiyalar, elektron məzmun, layihə metodikası və müasir tədris strategiyalarından istifadə istiqamətləri üzrə təşkil olunub.

Təlimlərin nəticəsi olaraq Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu tərəfindən iştirakçıların yekun qiymətləndirilməsi aparılacaq və təhsil işçilərinə sertifikatlar təqdim olunacaq.

# "Microsoft Office 2019" paketi




"Microsoft" şirkəti "Windows" və "Mac" əməliyyat sistemlərinin idarəetməsi altında işləyən kompüterlər üçün "Office 2019" paketini təqdim edib.

hitech.newsru.ru saytının məlumatında bildirilir ki, ofis paketinə "Word", "Excel", "PowerPoint" və "Outlook", "Project", "Visio", "Access" və "Publisher" proqramları daxildir.

Şirkət nümayəndələrinin sözlərinə görə, "Office 2019" paketində əvvəllər "Office 365" "bulud" xidmətində reallaşdırılmış bir sıra yeniləmələr tətbiq edilib. Məsələn, "PowerPoint"də kinematoqrafik təqdimatlar, "Word"də yeni tərcüməçi və "Excel"də qıfaoxşar diaqram və xəritəli diaqramlar əlçatan olub.

Xatırladaq ki, hələ fevralda "Office 2019" paketinin "Windows 7" və "Windows 8.1" əməliyyat sistemlərini dəstəkləməyəcəyi, yalnız "Windows 10" sisteminin idarəetməsi ilə işləyən fərdi kompüterlərdə işləyəcəyi barədə məlumat verilmişdi.

# Düyməli "ağıllı" telefon satışa çıxarılıb

**Yusif ƏLİYEV**

Çinin "Xiaomi" şirkəti "Qin AI Phone" adlı düyməli "ağıllı" telefonunu təqdim edib. Qurğu səsli əmrlərlə idarəetmə ilə yanaşı, həm də sinxron tərcüməçi funksiyasını yerinə yetirən "Xiao" adlı süni intellekt sistemi ilə təchiz edilib.

ferra.ru saytının məlumatına görə, ötən ay "Xiaomi" şirkəti sözügedən telefon üçün öz kraudfandinq (layihənin reallaşdırılması məqsədilə geniş kütlələrdən maliyyə cəlb olunması mexanizmi) platformasında vəsait toplayıb və indi telefon satışa çıxarılıb.

Telefon 240x320 piksel təsvir ölçülü IPS displey və "Corning Gorilla" qoruyucu şüşəsi ilə təchiz edilib. Qurğunu məişət texnikası üçün infraqırmızı pult kimi



istifadə etmək olar. Həmçinin "4G" və "Wi-Fi" dəstəklənir, stereo səs, internet-radio mövcuddur və "bulud" saxlanc sistemində faylların ehtiyat surəti yaradılır. Qiyməti 54 dollar təşkil edən telefon boz, ağ, qırmızı və sarı rənglərdə təklif olunur.

# "Ağıllı" şahmat lövhəsi

Yeni "Square Off" startapı şahmat oyununu tamamilə yeni səviyyəyə çıxarmağa söz verir. Belə ki, yeni şahmat lövhəsində fiqurlar dünyanın o biri ucundakı oyunçunun əmrlərinə tabe olaraq, lövhə üzrə müstəqil hərəkət edirlər.

techcult.ru saytının məlumatına görə, şahmat lövhəsi fiqurların gizli yerdəyişməsi mexanizmi və onların koordinatlarına nəzarət sistemi ilə təchiz edilib. Lövhədən əldə olunan məlumatların emalı və İnternetə ötürülməsi üçün xüsusi proqram da hazırlanıb. Beynəlxalq şahmat həvəskarları klubunun "Chess.com" veb-saytı vasitəsilə on milyonlarla oyunçu, həmçinin böyük qrossmeysterlərlə şahmat oynamaq mümkündür. Hələ əsl rəqiblərlə oynamağa hazır olmayanlar isə süni intellektlə oyuna başlaya bilərlər.



"The Kingdom" dəstini 329, "The Grand Kingdom" dəstini isə 399 dollara əldə etmək mümkündür. İkinci dəst oyundan əvvəl fiqurların avtomatik düzülüşü kimi bir sıra faydalı funksiyalara malikdir.